Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

28
İYUN
2019-cu il
№ 112 (4010)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# TRAMP ÜMUMDÜNYA TƏSİRLİ «DOLLAR İNQİLABINA» HAZIRLIQLARA BAŞLADI...

səh. 11

Ermənilərİ İlham Əliyevin "müharibə hələ bitməyib" bəyanatından səksəndirən nüanslar...
səh. 3

Regional proseslərin labüd nəticəsi - Azərbaycan çox da uzaq olmayan zamanda Qarabağ danışıqlarını dayandıracaq
səh. 9

ABŞ Nümayəndələr Palatasının komitə üzvündən gözlənilməyən çağırış - Azərbaycana RHMS-lər satmayın...
səh. 3

ABŞ-dan təcavüzkar Ermənistana 40, uydurma "DQR"ə 1,5 milyon dollar yardım - ermənilər uzaqgedən nəticələr çıxarmağa başlayır...
səh. 5

Ermənilərin Ermənistan-Yunanıstan-Kipr triosuna Fransanı da qoşaraq "kvartet" yaratmaq planı...
səh. 10

Otellər ulduz sayını artırsa da, xidmət səviyyəsi bərbaddır - Assosiasiya yoxlama anonsu verdi
səh. 12

Polis və ekologiya məmurları çimərliklərə qarşı cərimə sanksiyalarına başladı
səh. 14



## Ermənistan sülh danışıqlarını uzatmaq üçün yeni seçki oyununa başlayır - hədəf Paşinyanın prezident olmasıdır...

səh. 8



**Prezidentin 26 iyun - Ordu günü klipi - hərb sənətimizin yığcam tarixi...**
səh. 4

Ermənilər UNESCO-nun sessiyasının Bakıda keçirilməsinə mane olmaq üçün yeni böhtan kampaniyasına başladı...
səh. 7



**Rusiyada azərbaycanlıları ermənilərlə birləşdirmək istəyən Mehriban Sadıxova kimdir...**
səh. 5

səh. 7
Paşinyanın komanda üzvləri Rusiyanı AŞPA-da da vurdu...



səh. 6
Ermənistan Köçəryanın Rusiyaya qaçırdığı sərvətləri hansı mexanizmlə qaytaracaq...



səh. 12
Sosial islahatlar paketinin ölkədə kiçik və orta biznesin inkişafına təsir potensialları...



səh. 15
Tağıyevin heykəli ilə bağlı müsabiqə problemlə üzləşib - müddət uzadılacaqmı...



səh. 14
Bağçalarda ərzaq təhlükəsizliyi məsələsinə Qida... Agentliyi özü qarışdı...



## Xocəsən-Lökbatan avtomobil yolunun yenidən qurulmasına 13,5 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Xocəsən-Lökbatan avtomobil yolunun 0-11-ci kilometrlik hissəsinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, altmış dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Xocəsən-Lökbatan avtomobil yolunun 0-11-ci kilometrlik hissəsinin yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,5 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Diplomatik nümayəndəliklərin rəhbərlərinin Şəki və Zaqatalaya səfərləri başlayıb

**İyunun 27-28-də Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə regionların inkişafı və bu xüsusda bölgələrdə həyata keçirilən sosial və iqtisadi layihələr, habelə turizmin inkişafı ilə yerindəcə tanış olmaq məqsədilə Azərbaycanda fəaliyyət göstərən 50-dən artıq diplomatik nümayəndəliyin rəhbərləri və onların xanımlarının Şəki və Zaqatala rayonlarına tanışlıq səfərləri həyata keçirilir.**



Xarici İşlər Nazirliyindən baki-xeber.com-a verilən məlumat görə, səfər çərçivəsində xarici diplomatlar Şəki rayonunda "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq qoruğu, Xan Sarayı, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi, Yuxarı Karvansaray, "Şəki Şərab" Azərbaycan Sənaye Korporasiyası və Kiş kəndində qədim Alban məbədi ilə tanış olacaqlar. Diplomatlar, eyni zamanda, Zaqatala rayonunda "Heydər Əliyev Mərkəzi", Tarix-Mədəniyyət qoruğu, Heydər Parkı, Dədə Qorqud Meydanı, Alban kilsəsi, Tarix-Diyarşünaslıq Muzeyi, eləcə də Fındıq emalı zavodu, "Azroze MMC" və "Azərtütün" MMC ilə tanış olacaqlar.

## Rusiya Ermənistana satdığı təbii qazı bahalaşdıracaq...

**Rusiya hökuməti 2020-ci il yanvarın 1-dən etibarən təbii qazın qiymətini 10 faiz artırmaq niyyətindədir. "Trend"in məlumatına görə, bu barədə Ermənistan KİV-i yazır.**

Qeyd olunur ki, budəfəki qiymət artımı birbaşa əhaliyə təsir edəcək. Bu il təbii qazın qiymətinin artırılması "Qazprom Armeniya" şirkətinin hesabına baş verməmişdisə, gələn il bunu etmək mümkün olmayacaq. Erməni mətbuatı yazır ki, Ermənistan hökuməti Rusiya tərəfi ilə danışıqlar aparsa da, bunun müsbət nəticələnəcəyi ehtimalı azdır.

## Azərbaycanda turizm polisi yaradılır - məsələ DİN-lə müzakirə olunur

**Azərbaycanda turistlərin problemlərinin dinlənilməsi və həll edilməsinə kömək etmək üçün turizm polisi yaradılacaq.**

Baki-xeber.com xəbər verir ki, bunu Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov deyib. Aparat rəhbərinin sözlərinə görə, turizm polisləri turistlərə xidmət göstərəcək şəxslər olacaqlar və turistlər ölkədə olarkən, şəhərdə gəzərkən çətinlik çəkdiyi zaman bu xidmətlərdən istifadə edəcəklər. K.Qasımov qeyd edib ki, ölkədə turistlərə xidmət göstərən dövlət qurumlarının bütün xidmətlərinin vahid mərkəzdən idarə olunması üçün "Qaynar xətt"in yaradılması nəzərdə tutulur: "Turist "Qaynar xətt"ə müraciət etməklə problemlərini həll edə, suallarına cavab tapa bilər. Bununla turistlə dövlət arasında əlaqə yaradılır ki, onların problemi daha çevik həllini tapsın. Turizm polisinin yaradılması məsələsi Daxili işlər Nazirliyi ilə müzakirə olunur. Artıq bununla bağlı hüquqi razılıq, şəhərdə turizm polisi formaları geyinən şəxslərin olması ilə bağlı ilkin razılıqlar əldə olunub. Bu ideya artıq təsdiqlənib".

**Xalq artisti Roza Cəlilova Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru Şirməmməd Hüseynovun vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Prezident aqrar sahədə yeni subsidiya mexanizmi yaratdı



**Prezident İlham Əliyev Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Fərman imzalayıb.**

Fərmana əsasən, "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası" təsdiq edilir.

Fərmanla təsdiq edilmiş Qaydaya əsasən, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 (iki yüz) manat müəyyən edilir.

# Millət vəkili Qənirə Paşayeva AŞ PA-da işğalçı Ermənistanın qətlə yetirdiyi azərbaycanlı uşaqlardan danışdı...

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin üzvü Qənirə Paşayeva qurumun yay sessiyasında Ermənistanın qətlə yetirdiyi azərbaycanlı uşaqların məsələsini qaldırıb.**

"Trend"in məlumatına görə, azərbaycanlı deputat bildirib ki, zamanında Ermənistana qarşı ciddi addımlar atılsaydı, bu gün həmin uşaqlardan bəziləri aramızda olardı.

Q.Paşayeva AŞ PA-nı ikili standartlardan əl çəkməyə çağırıb: "Dünyada uşaqların yarısının hər il zorakılıqdan əziyyət çəkməsi bizi çox ciddi narahat etməlidir. Biz uşaqların daha güclü müdafiəsi, uşaqlara qarşı zorakılıqla mübarizə istiqamətində səylərimizi daha da gücləndirməliyik. Uşaqlara qarşı zorakılıq işğalın, münaqişənin olduğu bölgələrdə daha da dəhşətli olur. Bu gün burada körpə uşaqları Ermənistan tərəfindən qətlə yetirilmiş, zorakılığa məruz qalmış ailələr adından danışmaq istəyirəm. Avropa Şurasının üzvü olan Ermənistanın qurumun digər üzvü Azərbaycanın torpaqlarının 20 fazini işğal etməsi nəticəsində on minlərlə uşaq məcburi köçkün düşdü və həmin adamlar bu günə qədər də köçkün həyatı yaşayırlar. Onlarla azərbaycanlı uşaq Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirildi. Ermənistanın Azərbaycanın Xocalı şəhərində törətdiyi soyqırım zamanı 63 uşaq qətlə yetirilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirib. Onlarla uşaq soyqırımdan qaçarkən soyuq qış günlərində həyatını, sağlamlığını itirib. Minlərlə azərbaycanlı uşaqlara qarşı bu zorakılıqları törədənlər isə ədalət qarşısında cavab verməmişlər və bu gün də Ermənistanda müxtəlif vəzifələrdə çalışırlar. AŞ PA-nın qəbul etdiyi qətnamələri isə Ermənistan bu gün də yerinə yetirməkdən imtina edir. Bu uşaqlara qarşı törədilmiş zoralıq və cinayətlərin qarşısını almaq üçün çox təssüf ki, AŞ, AŞ PA heç bir ciddi addımlar atmadı. Ermənistan silahlı qüvvələri isə azərbaycanlı uşaqlara qarşı zorakılıqları davam etdirir. 2011-ci ildə Ermənistan silahlı qüvvələri öz həyətində oynayan zaman 9 yaşlı Fariz Bədəlovu başından snayperlə vuraraq qətlə yetirdilər. Mənim millət vəkili olduğum bölgədən 13 yaşlı bir qızı - Aygün Şahmalıyevanı qətlə yetirdilər. 2017-ci ildə isə iki yaşı tamam olmamış balaca Zəhranı qətlə yetirdilər. Bu siyahanı davam etdirə bilərəm, amma təəssüf ki, zaman azdır. Bu



zorakılıqları, cinayətləri törədənlər isə hələ də ədalət qarşısında cavab verməyiblər. Ona görə də sizləri ikili standartlara yol verməmədən uşaqlara qarşı törədilmiş bütün növ zorakılıqlara qarşı birlikdə daha ciddi mübarizəyə çağırıram".

Deputat Azərbaycanda uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində görülən işlərə də toxunub: "Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, uşaqlara qarşı pis rəftar, uşaqların istismarı, uşaq alveri və uşaqlara qarşı zorakılığın və işgəncələrin bütün növlərinə son qoymaq dövlətin əsas prioritetlərdəndir. Bu istiqamətdə BMT, AŞ PA da daxil olmaqla beynəlxalq qurumlarla effektiv əməkdaşlıq edilir. İnsan alveri, o cümlədən uşaqlara qarşı zorakılıqla bağlı hesabatlar parlamentdə müzakirə olunur, qanunvericilikdə uşaqların müdafiəsi mexanizmləri daha da gücləndirilir, maarifləndirmə işlərinə böyük önəm verilir. Bu istiqamətdə vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq və görülən işlər daha da genişlənir. Uşaqların hamısının ibtidai və orta təhsil alması təmin edilib. Məcburi köçkün uşaqların təhsili, zorakılıqdan müdafiəsinə isə xüsusi diqqət yetirilir. Avropa Şurasının Avropada uşaqlara qarşı zorakılıq halları ilə mübarizə istiqamətində reallaşdırdığı "Hər beş uşaqdan biri" kampaniyası ölkəmizdə uğurla həyata keçirilib. Azərbaycanda uşaq zorakılığının qarşısının alınmasında milli strategiya yüksək səviyyədə həyata keçirilir və mövcud qanunvericilik ildən-ilə təkmilləşdirilir. Bununla əlaqədar olaraq, Milli Məclisdə müxtəlif yerli və beynəlxalq qurumların, hökumət və qeyri-hökumət təşkilatlarının təmsilçilərinin iştirakı ilə tədbirlər keçirilib, məktəblərdə "Biz zorakılığa yox deyirik!" mövzusunda müzakirələr aparılıb və işlər davam etdirilir. Bütün bunlara baxmayaraq, bu istiqamətdə daha çox işlərin görülməsi dövlətin diqqət mərkəzindədir. İnanıq ki bu günkü müzakirələr və qəbul edilən qətnamə layihəsi də üzv ölkələrdə uşaqlara qarşı zorakılıqla daha effektiv mübarizəyə öz müsabət töhvəsini verəcək".

# Erməniləri İlham Əliyevin "müharibə hələ bitməyib" bəyanatından səksəndirən nüanslar...

**"Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək".**



***İbrahim Rüstəmli:*** *"Ermənilərin ölkə başçısının "müharibə hələ bitməyib" fikrindən narahat olmaları təbiidir"*

Bunu Prezident, Ali Baş Komandan İlham Əliyev 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları və müəllimləri ilə görüşündə deyib. Ölkə başçısı bildirib ki, ordu quruculuğu prosesi uğurla, sürətlə gedir: "Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir".

Prezident onu da bildirib ki, imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir: "Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək".

Bu arada o da məlum olub ki, erməni tərəfi Prezident İlham Əliyevin "müharibə hələ bitməyib" fikrindən bərk narahat olmağa başlayıb. Ölkə başçısının sözügedən fikirləri erməni mediasında narahatlıqla qarşılanaraq müxtəlif müzakirələrə səbəb olub.

Maraqlıdır, erməni tərəfi bundan niyə bu qədər narahatdır? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmli ermənilərin bu yöndə narahatlıq keçirmələrinə bir neçə kontekstdən yanaşdı:** "Əvvəla bu fikirləri ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi kimi dəyərləndirirəm. Azərbaycanda böyükdən-kiçiyə hamı birmənalı olaraq belə düşünür ki, Azərbaycan öz torpaqlarını mütləq işğaldan azad etməlidir. Prezident İlham Əliyev də öz dövlətinin hərbi, siyasi, ictimai maraqlarını ifadə edir. Ermənilərin ölkə başçısının "müharibə hələ bitməyib" fikrindən narahat olmaları təbiidir. Çünki bu gün Ermənistanda Qarabağla bağlı düşüncələrdə bəzi deformasiyalar, transformasiyalar müşahidə edilir. Bu transformasiyalar ondan ibarətdir ki, sadə erməni vətəndaşları üçün müharibə acı bir həqiqətdir. Sadə erməni vətəndaşlarına Qarabağ lazım deyil. Bu dəqiqə Ermənistan rəhbərliyi onların çiyninə bu ağır yükü qoymaqla, cəmiyyətdə kütləvi psixoz yaradır. Reallıq ondan ibarətdir ki, sadə erməni vətəndaşı Qarabağda döyüşmək istəmir. Onlar bilirlər ki, gec-tez, Azərbaycan öz ərazilərini azad edəcək. Bu ictimai rəyin formalaşmasında Azərbaycan dövlətinin, ölkə başçısının prinsipial mövqeyi xüsusi rol oynayıb. Bu gün də biz öz hədəflərimizdən əl çəkməmişik. Azərbaycan bununla bağlı öz prinsipial mövqeyindən əl çəkməyib. Azərbaycanın bir dövlət olaraq ən əsas məqsədi torpaqları azad etməkdir. Ona görə də hesab edirəm ki, biz daim bu döyüşə hazır olmalıyıq. Çünki bu həlledici bir döyüş olacaq. Sadəcə, onun yetişmə məqamı, baş verməsi və bu mexanizmin hərəkətə keçməsi üçün müəyyən zəmin yaranmalıdır. Ona görə də hər birimiz buna hazır olmalıyıq".

*"Onlar bilirlər ki, gec-tez, Azərbaycan öz ərazilərini azad edəcək"*

***Vidadi ORDAHALLI***

# ABŞ Nümayəndələr Palatasının komitə üzvündən gözlənilməyən çağırış - Azərbaycana RHMS-lər satmayın...

**ABŞ Nümayəndələr Palatasının komitə üzvü, ermənipərəst konqresmen Bred Şerman iyunun 25-də Azərbaycanın hücum imkanlarını gücləndirməsinə mane ola biləcək bir dəyişiklik təqdim edib. Şerman Amerika istehsalı olan silahın hesabına Azərbaycanın hərbi hava qüvvələrinin zərbəendirici imkanlarını təkmilləşdirmək perspektivinin qarşısının alınmasını istəyir.**



***Mübariz Əhmədoğlu:*** *"Xankəndi hava limanına uçan istənilən təyyarəyə Azərbaycan tərəfi icazə verməlidir"*

Bu barədə ABŞ-dakı Ermənistanın Milli Komitəsi (ANCA) məlumat yayıb. Sözügedən məlumata görə, təşəbbüs Bakının Xankəndidə yerləşən hava limanına uçacaq mülki aviasiya vasitələrinə daim təhlükə törətməsinin qarşısını almağı hədəfləyir. Yəni bu dəyişiklik ABŞ-ın Azərbaycana hava hücumundan müdafiə sistemini gücləndirə biləcək silah satışını əngəlləyə bilər.

"Həmin dəyişiklik Azərbaycana tutarlı bir mesaj olacaq ki, bu ölkə mülki təyyarələri vurmaqla təhdid edə bilməz. Azərbaycana öz qonşularını qorxutmağa icazə verilməməlidir" - deyən Demokrat Partiyasından olan konqresmen bildirib ki, biz Azərbaycanın hava müdafiə sisteminin gücləndirilməsinə kömək edə bilmərik.

O da qeyd edilir ki, Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsi həmin məsələnin müzakirəsi üçün müstəqillik günündən, yəni iyulun 4-dən sonra toplanacaq.

Məlumdur ki, Birləşmiş Ştatlar Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycana silah satmır. İki ölkə arasında bir sıra sahələrdə geniş əməkdaşlıq olsa da, silah ticarəti yoxdur. Ancaq zaman-zaman Konqresdə erməni lobbisinin maraqlarından çıxış edən konqresmenlər çalışırlar ki, Azərbaycana qarşı hansısa qərarlar qəbul edilsin. Bu yöndə müəyyən səylər göstərirlər.

Bu baxımdan, Bred Şermanın Azərbaycanla bağlı bu ədalətsiz təklifini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu ermənipərəst konqresmenlərin bu yöndə fəallaşmasını müəyyən səbəblərlə əlaqələndirdi:** "Azərbaycan ABŞ-dan hava hücumu ilə bağlı sistemlər almır. Biz Rusiyadan, İsraildən, dünyanın digər dövlətlərindən müxtəlif silahlar alırıq. Bizim istənilən təyyarəni vura biləcək silahlarımız var. Xankəndinə mülki təyyarələrin uçmasına gəldikdə isə, Beynəlxalq Mülki Aviasiya Təşkilatı buna qadağa qoyub. Çünki ora Azərbaycan ərazisidir. Bunu konqresmen Bred Şerman da yaxşı bilir. Xankəndi hava limanına uçan istənilən təyyarəyə Azərbaycan tərəfi icazə verməlidir. İndi ermənilər buyurub danışıq aparsın və Azərbaycandan icazə alsınlar. Yəni görünən odur ki, ermənilər zəifləyiblər. İndi bilmirlər ki, nə hoqqa çıxarsınlar. Ona görə də Konqresdəki ermənipərəst qüvvələr müxtəlif məsələləri gündəmə gətirirlər. Ya da görürsən ki, ermənilər zəif gücü olan məlumatları şişirdərək yayırlar. Bununla belə rəy yaradırlar ki, iş başındadırlar. Guya ABŞ-da kimsə bunlara dəstək verir. ABŞ Konqresində qarşıdan gələn maliyyə ilinin büdcəsinin müzakirəsi gözlənir. Bu səbəbdən ermənipərəst konqresmenlər aktivləşiblər və müxtəlif təkliflər verirlər. Hava hücumundan müdafiə sistemini gücləndirə biləcək silahlarla bağlı təklif də bunlardan biridir. Hesab edirəm ki, bu təklif ədalətsiz olsa da, ciddi təsiri olmayan prosesin tərkib hissəsidir. Fikrimcə, erməni lobbisinin maraqlarına işləyən bu təklif Konqresdən keçməyəcək. Konqres Azərbaycana qarşı 1992-ci ildə "907-ci düzəliş"i qəbul etdi. Ancaq 2002-ci ildən bəri ABŞ prezidentləri bu düzəlişin həyata keçməsini dayandırırlar. Ona görə də son məsələlərdən elə də narahat olmaq lazım deyil".

*"Fikrimcə, erməni lobbisinin maraqlarına işləyən bu təklif Konqresdən keçməyəcək"*

***Vidadi ORDAHALLI***

# Prezidentin 26 iyun - Ordu günü klipi - hərb sənətimizin yığcam tarixi...

## **Şair Ramaldanov:** *"Bu videoçarx Azərbaycan Ordusunun 101 illik zaman ərzində keçdiyi böyük və şərəfli tarixi yolu əks etdirir"*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə "Facebook" və "Instagram" səhifəsində paylaşdığı, əsgər və zabitlərə həsr olunan videoçarx günün trendinə çevrilib.**

Kiçik bir filmi xatırladan sözügedən videoçarx ölkənin ictimai-siyasi həyatında müsbət mənada böyük rezonans yaradıb. 101 yaşlı ordumuzun yığcam tarixini əks etdirən videoçarxda Azərbaycan Xalq Cümhuriyyəti dönəmindən başlamış indiyə qədər Azərbaycan Ordusunda əsgər və zabitlərin istifadə etdiyi geyim formaları nümayiş etdirilib.

**Tanınmış hərbi ekspert, iki dəfə "Azərbaycan bayrağı" ordeninə layiq görülmüş Şair Ramaldanov "Bakı-Xəbər"ə Prezidentin paylaşdığı videoçarxla bağlı maraqlı şərh verdi.** Ş.Ramaldanovun sözlərinə görə, klipdə 101 yaşlı Azərbaycan Ordusunun tarixi öz əksini tapıb. O qeyd etdi ki, Azərbaycan Silahlı Qüvvələri 101 il ərzində böyük tarixi yol keçib. "Azərbaycan Respublikası Prezidentinin "Facebook" və "Instagram" səhifəsində yayılan videoklipi cənab Prezidentin Azərbaycan Ordusuna bəslədiyi münasibət kimi də qəbul etmək olar. Bunu, həmçinin, Azərbaycan Silahlı Qüvvələrinə ölkə başçısının verdiyi yüksək dəyər olaraq da qiymətləndirmək mümkündür. Bu videoçarx Azərbaycan Ordusunun 101 illik zaman ərzində keçdiyi böyük və şərəfli tarixi yolu əks etdirir. 101 il ərzində Azərbaycan Ordusu böyük bir təkamül yolu keçib. Görürsünüz ki, Cümhuriyyət dövründən indiyə qədər əsgər və zabitlərimizin geyim tərzi necə dəyişib, necə təkmilləşib. Yəni 101 il ərzində Silahlı Qüvvələrimizdə xidmət edən hərbçilərin yalnız geyimi dəyişməyib, həm də ordumuz güclənib, qüdrətlənib. Biz o videoklipdə Azərbaycan Ordusunun inkişafını görürük. Azərbaycan əsgəri, Azərbaycan oğlu həmişə ölkəmizin müstəqilliyi, suverenliyi uğrunda mübarizə aparıb, Azərbaycanın ərazi bütövlüyünü, xalqımızı qoruyub və qorumağa da davam edir. Əlbəttə, ilk baxışdan o videoklipdə daha çox dəyişən və müasirliyə doğru gedən geyim formasının nümayişini görürük, lakin bu görüntülərin arxasında böyük bir məna, şanlı bir tarix göz önünə gəlir. Biz burada əsgər və zabitlərimizin dəyişən və müasirləşən geyimləri ilə yanaşı, Azərbaycanın qüdrətli dövlət olaraq yenilməz, əzəmətli orduya malik olduğunu da görürük. Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 güclü silahlı qüvvələri sırasında özünəməxsus yer tutubsa, bu, ilk növbədə, onun inkişafının əyani göstəricisidir. Azərbaycan Ordusunun ulu öndərin Vətənə qayıdışından sonra qısa bir zamanda formalaşdığı məlumdur. Qısa bir zamanda Azərbaycan Ordusunun vahid mərkəzdən idarə olunması ordumuzu həm bölgədə, həm də dünyada güclülər sırasına gətirib çıxarıb. Bu gün Ali Baş Komandanımızın orduya xüsusi münasibəti var və o, ordumuza böyük inam, etimad bəsləyir.

Biz həmin videoklipin arxa kadrlarında Azərbaycan Ordusunun hazırda müasir silahlarla silahlanmasını, eyni zamanda, Vətənə fədakarlıqla xidmət edən hərbçilərimizi gördük. Azərbaycan hərbçiləri harada olurlarsa olsunlar, daim seçilirlər. Bu gün Azərbaycan Ordusu müasir silahlarla silahlanıbsa, bu, ilk növbədə, ölkəmizdə hərbçi kadrların, mütəxəssislərin intellektual potensialının inkişaf etdiyinin göstəricisidir. Çünki bugünkü silahlar müasir silahlardır və intellektual cəhətdən böyük bilik tələb edir. Hansı silah olursa-olsun, əlbəttə, onu insan idarə edir və həmin o videoklipdə də Azərbaycan hərbçilərinin bütün sahələrdə inkişaf etdiyi göstərilir. Deyərdim ki, o videoklipə baxdıqda orada yer alan Azərbaycan hərbçilərinin mimika və üz cizgilərini təhlil etdikdə biz onların orada vətənpərvərlik xüsusiyyətlərinin ən yüksək formasını görürük. Azərbaycan əsgəri, zabiti həmişə vətənpərvər olub və vətənpərvərliklə də bərabər öz milliliyini saxlayıb. Bizim ordumuz hər zaman milli dəyərlərimizi yüksək tutub".

Ş.Ramaldanov qeyd etdi ki, bu vətənpərvərlik hissi əsgərlərimizin, zabitlərimizin öz Vətənlərini, xalqını qoruması ilə müşayiət edilib. O vurğuladı ki, Prezidentin paylaşdığı videoklipdə güclü milli kolorit də öz əksini tapıb. "Bu çox təsirli videoklipdir. Belə bir videoklipin ölkənin birinci şəxsinin "Facebook" və "Instagram" səhifəsində paylaşılması, əlbəttə, o klipin əhəmiyyətini daha da artırıb. Bu həm maraqlı klipdir, həm də Ali Baş Komandanın Silahlı Qüvvələrə bağlılığının göstəricisidir. Hesab edirəm ki, bu videoçarx ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb və onu öz "Facebook", "Instagram" səhifələrində çoxlu sayda insan paylaşıb, statusa çevirib. Bu videoklip olduqca böyük populyarlıq qazandı. Bu da, ilk növbədə, onu deməyə əsas verir ki, Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti ordu quruculuğu məsələsində Azərbaycan Prezidentini dəstəkləyir və onunla həmrəydir. Düşünürəm ki, bu videoçarx Azərbaycan Ordusunun inkişafını göstərməklə yanaşı, həm də Azərbaycan Ordusunun gücünün də göstəricisidir".





*"Bu videoçarx Azərbaycan Ordusunun inkişafını göstərməklə yanaşı, həm də Azərbaycan Ordusunun gücünün də göstəricisidir"*

**Ş.Ramaldanov qeyd etdi ki, 101 yaşlı Azərbaycan Ordusu Azərbaycan xalqının qürur mənbəyidir və ordumuz bundan sonra da böyük nailiyyətlərə nail olacaq.**

***İradə SARIYEVA***

**Uzun müddətdir ətrafında qalmaqal yaradılan azərbaycanlı jurnalist Fuad Abbasov Moskvada saxlandığı təcridxanadan azadlığa buraxılıb, elə həmin gün də Rusiyadan Azərbaycana deportasiya olunub. Fuad Abbasov hansı səbəbdən saxlandığı, onunla olan rəftar barədə ətraflı müsahibə verib.**

# Rusiyada azərbaycanlıları ermənilərlə birləşdirmək istəyən Mehriban Sadıxova kimdir...

## *Samir Adıgözəlli: "Rusiyada diasporumuzun yenidən qurulması və onunla bağlı ciddi işin ortaya qoyulması gərəkdir"*



Eyni zamanda, onun guya Rusiyada milli ədavəti qızışdırması ilə bağlı gəzən şayiələrə də aydınlıq gətirib.

O qeyd edib ki, onunla bağlı bu söz-söhbəti "Azerros"adlı diaspor təşkilatının sədri Mehriban Sadıxova yayıb: "Mehriban xanım şəxsən mənə dedi ki, guya mən Rusiyada yaşayan ermənilərlə azərbaycanlıların arasında nifaq salıram. Açıq şəkildə bildirdi ki, məndən Rusiyanın əlaqədar orqanlarına şikayət edəcək. Maraqlıdır ki, onlar belə bir şikayəti orada bizim əleyhimizə təbliğat aparan ermənilərlə bağlı deyil, mənimlə bağlı edirlər".

Jurnalistin açıqlamasından görünür ki, Azərbaycan diasporunda təmsil olunan bir xanımı ermənilərlə bağlı səsləndirilən fikirlər ciddi narahat edib, hətta vəziyyət o yerə çatıb ki, onlar öz soydaşımızdan Rusiyanın əlaqədar qurumlarına şikayət ediblər. Mehriban Sadıxova kimdir və onun ermənilərə olan aşırı sevgisi haradan qaynaqlanır?

Dünya Azərbaycanlıları Konqresi İcra Aparatının rəhbəri **Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, Mehriban Sadıxovanın ermənilərə böyük sayğı göstərməsi ilə bağlı faktlar çoxdur:** "Fuad Abbasov bunu deyir. Mən də inanıram. Amma Fuadla bağlı onun tərəfindən belə bir şikayətin edilməsi ilə bağlı konkret nəsə deyə bilmərəm. Çünki əlimdə rəsmi sənəd yoxdur. M.Sadıxova Rusiyada yaradılan Azərbaycan Milli Mədəni Muxtariyyətinin rəhbəridir. Onun ermənilərə rəğbət bəslədiyini sübut edən ən bariz fakt həyat yoldaşı erməni olan, hətta qızını erməniyə ərə verən Ağadadaş Kərimov adlı diaspor rəhbəri ilə birgə fəaliyyət göstərməsidir. M.Sadıxovanın ətrafında bizim diasporu təmsil edən real adamlardan kimsə yoxdur. Bir möhür, bir özüdür. Amma Rusiya hakimiyyəti ona ciddi dəstək verir ki, status qorunub saxlansın. Çox təəssüf edirik ki, adı azərbaycanlı, özü azərbaycanlı olan, Azərbaycanla bağlı diaspor təşkilatına rəhbərlik edən şəxs belə mövqe tutur. Görünən budur ki, ondan elə məhz Azərbaycan diasporuna qarşı istifadə edirlər. İndiyə kimi siz onun adının hansısa ciddi bir iş görməsi ilə bağlı çəkildiyini eşidibsinizmi? Onun təmsil olunduğu təşkilat sırf Rusiyanın marağına uyğundur. Təbii ki, Rusiya istəməz ki, onun ərazisində milli münasibətlər kontekstində hansısa proseslər həyata keçirilsin. Hətta ermənilərlə azərbaycanlıların orada mehriban yaşamasını da arzulayır. M.Sadıxova kimi adamlar da bizim diasporumuzun adı ilə sırf Rusiyanın dövləti maraqlarına qulluq edirlər.

*"Bu cür adamlar ölkəmizin, diasporumuzun..."*

**Ora vətəndaşıdırlarsa, bunu etsinlər, ancaq soydaşlarımızla bağlı belə şikayətlərin edilməsi rəzalətdir. Nəinki diaspor rəhbəri, hətta sadə Azərbaycan vətəndaşı adına belə ləkədir. Bu baxımdan da hesab edirəm ki, Azərbaycanın ən böyük diasporunun cəmləşdiyi Rusiyada diasporumuzun yenidən qurulması və onunla bağlı ciddi işin ortaya qoyulması gərəkdir. Bu cür adamlar ölkəmizin, diasporumuzun adına utanc gətirir".**

***Məhəmmədəli QƏRİBLİ***

**Ötən həftə ABŞ Konqresi Ermənistana ayrılan maliyyə yardımının 40 milyon dollara qədər qaldırılması barədə təklif edilən düzəlişi təsdiqləyib. 2020-ci fiskal ilində xarici yardım haqqında qanun layihəsinə düzəlişi konqresmen Ceki Spiyer təklif edib. Onun bu fikrini erməniyönlü konqresmenlər Frenk Pallone və Adam Şif də dəstəkləyiblər.**

# ABŞ-dan təcavüzkar Ermənistana 40, uydurma "DQR"ə 1,5 milyon dollar yardım - ermənilər uzaqgedən nəticələr çıxarmağa başlayır...

## *Qabil Hüseynli: "Heç kimə sirr deyil ki, Ermənistan ABŞ-ın indiyə qədər etdiyi yardımların hamısını hərbi xərclərə ayırıb"*



Nümayəndələr Palatası, həmçinin, Qarabağda mina təmizləmə proqramları və reabilitasiya xidmətləri üçün 1,5 milyon dollar həcmində yardım ayrılmasını təklif edən düzəlişi də təsdiqləyib. Bu təklifi isə Konqresdə Tice Koks irəli sürüb.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva da təsdiqləyib ki, Ermənistana 40 milyon yardım ayrılması ilə bağlı təklif demokratlar tərəfindən irəli sürülüb: "Bu təklif ilkin mərhələdən keçib. Amma, dediyim kimi, bu, uzun bir prosesin ilkin mərhələsidir və hələ bir neçə müzakirədən keçməlidir. Ona görə də bunu "ABŞ Ermənistana 40 milyon dollar yardım ayırıb" şəklində təqdim etmək düzgün deyil".

Qeyd edək ki, ermənilər ABŞ-ın bu cür jestlərindən özləri üçün ciddi nəticələr çıxarmağa başlayırlar. Onlar bunu ABŞ-ın Ermənistanla getdikcə strateji müttəfiqlik bağlarını möhkəmlətmək cəhdləri kimi dəyərləndirirlər. İndiki şəraitdə ABŞ-ın Ermənistana və qondarma quruma belə diqqət göstərməsi, hətta maliyyə yardımı ayırmaq kimi niyyətini ortaya qoyması nədən xəbər verir?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, 1992-ci ilin oktyabrında ABŞ Konqresi keçmiş sovet respublikalarına dövlət yardımını tənzimləyən "Azadlığın Dəstəyi Aktı" adlı qanun qəbul edib:** "Bu qanuna edilən "907-ci düzəliş" Azərbaycanın rəsmi qurumlarına ABŞ hökuməti tərəfindən birbaşa yardımın göstərilməsinə qadağa qoyur. Düzəlişin qüvvədə olması 2002-ci ildən ABŞ Prezidenti tərəfindən dayandırılıb, lakin birdəfəlik ləğv edilməyib. ABŞ-ın işğalçı Ermənistana, hətta separatçı ermənilərə yardım ayırması məntiqə sığmır. ABŞ-ın Ermənistana yardım etməsi məsələsi təşviş doğuran faktdır. Bu yardımı əsasən humanitar məsələlərə xərcləmək, əhalinin sağlamlığı, qida problemlərinin həllinə yönəltmək adı ilə alırlar. Ancaq heç kimə sirr deyil ki, Ermənistan ABŞ-ın indiyə qədər etdiyi yardımların hamısını hərbi xərclərə ayırıb, silaha çevirib Azərbaycana, onun mülki əhalisinə qarşı yönəldib. Amerika bu məsələni də bilməmiş deyil".

Q.Hüseynlinin sözlərinə görə, Minsk Qrupunun həmsədrlərindən biri kimi problemin həllində iştirak edənlərin biri də odur: "Tərəfləri hər zaman kompromisə çağırır. Ancaq bu məsələdə kompromisin necə əldə edilməsinin mümkünlüyünə diqqət yetirmir. Çünki təcavüzkar dövlət hücum edərək başqa bir dövlətin ərazisinin 20 faizini işğal edib. ABŞ isə deyir ki, kompromisə getməlisiniz, dil tapmalısınız. Başqa bir problem odur ki, ABŞ Qarabağ probleminin guya Dnestryanı, Cənubi Abxaziya, Osetiya problemlərindən fərqli olduğunu və buna görə də ona ələhiddə yanaşma metodlarının tətbiq edilməsinin gərəkliyini söyləyir. Bu zaman da ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə hüququnu eyniləşdirirlər, çox ziddiyyətli mövqe tuturlar. Təcavüzkarı şirnikləndirən bir mövqe sərgiləyirlər. Bu özünü Ermənistan və qondarma "DQR"ə maddi yardım ayırmaq təşəbbüslərində də göstərir. Təsadüfi deyil ki, bu cür şirnikləndirici təkliflərdən Ermənistan ABŞ-la daha yaxın müttəfiq olduğuna dair nəticələr çıxarır. Təbii ki, bu cür addımlar Azərbaycanı ABŞ-dan incik duruma salır. Azərbaycan müxtəlif yollarla bunu Amerika rəhbərliyinin diqqətinə çatdırmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

Məlum olduğu kimi, Ermənistanın sabiq prezidenti Robert Köçəryan yenidən həsb edilib. Apelyasiya məhkəməsi İrəvan məhkəməsinin 18 mayda Köçəryanın zaminlə azadlığa buraxılması haqqında qərarını ləğv edib və onun yenidən həbs edilməsi barədə qərar çıxarıb.

# Ermənistan Köçəryanın Rusiyaya qaçırdığı sərvətləri hansı mexanizmlə qaytaracaq...

## *Mehman Muradlı: "Əldə olunan dəqiq faktlar əmlakın aşkar edildiyi ölkənin müvafiq qurumlarına təqdim edilməlidir"*



Bu arada Ermənistanın baş prokuroru Artur Davityan Rusiyanın bu ölkədəki səfiri Sergey Kopırkinlə görüşüb. Ermәni mətbuatının yaydığı məlumata görə, görüşdə Davityan və Kopırkin iki ölkə arasında hüquqi sahədə əlaqələrin, eləcə də Ermənistan və Rusiyanın prokurorluq orqanları arasında ikitərəfli və çoxtərəfli formatlar çərçivəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd ediblər. Burada diqqətçəkən məqam odur ki, görüşdə Davityan qanunsuz yolla əldə edilmiş əmlakın müsadirə edilməsi və Ermənistandan çıxarılan malların qaytarılması üçün institusional mexanizmlərin işlənməsinin vacibliyini vurğulayıb. Baş prokurorun fikrincə, bu, korrupsiya hallarının araşdırılması və qanunsuz zənginləşmənin qarşısının alınması üzrə cinayət işinin istintaqının effektivliyinin artırılmasına kömək edəcək. Davityan onu da qeyd edib ki, beynəlxalq əməkdaşlıq sahəsində Ermənistandan qanunsuz yolla çıxarılan əmlakın qaytarılması, Ermənistan və digər ölkələrin məhkəmə qərarlarının qarşılıqlı tanınması məsələlərini həll etmək üçün tədbirlər görüləcək.

Səfirin çox həssas bir məqamda Ermənistanın baş prokuroru ilə görüşməsi Köçəryanla bağlı olub. Baş prokuror isə dolayısı ilə Köçəryanın ölkədən çıxarılmış varidatının geri qaytarılması mexanizmini qabardır. Bu o deməkdir ki, Paşinyan hakimiyyəti həm də Köçəryan klanının qanunsuz olaraq Ermənistandan çıxarıb Rusiyaya yerləşdirdiyi əmlak geri qaytarmaq istəyir. Köçəryanın Ermənistandan oğurlayaraq Rusiyaya yerləşdirdiyi əmlakın geri qaytarılması mexanizmi mümkündürmü və bu, necə həyata keçirilə bilər?

**Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, Köçəryanın işi daha çox siyasi mahiyyət daşıyır:** "Yəni məsələnin hüquqi tərəflərindən çox, bu məsələni siyasi iradə həll edir. Prosesləri mən də yaxından izlədim. Əvvəl Rusiyanın səfiri Köçəryanın özü ilə görüşdü. Sonra həmin ölkənin Konstitusiya Məhkəməsinin sədrinin qəbulunda oldu. Ermənistanda bu addımlar təpki ilə qarşılandı və Paşinyanın təzyiqi ilə eksprezident yenidən həbsə göndərildi. Budəfəki həbs baş prokurorun protesti əsasında olduğu üçün, Rusiya səfiri həmin qapını döyməli olub. Görünən budur ki, Rusiya Köçəryana "vəkillik" edir. Nəyin bahasına olursa-olsun, onu həbsdən azad etmək istəyir. Baş prokuror açıq şəkildə deyib ki, onun taladığı və Rusiyada yerləşdirdiyi əmlaklar, var-dövlət geri qaytarılmalıdır. Şərtlərdən biri budur. Bunu həm qanuni yolla, həm də başqa üsulla həll etmək olar. Yəni Köçəryan əmlakı satır, tələb olunan vəsaiti ödəyir deyilən hesaba, onunla bağlı hökm yumşalır. Qanuni mexanizmi isə belədir. Məhkəmə əmlakın oğurluq olması və harada yerləşməsi ilə bağlı qərar çıxarmalıdır. Yəni tam sübut olunmalıdır ki, Köçəryan oğurladığı pulları harada gizlədir. İki ölkə arasında bu yöndə razılaşma varsa, həmin əmlakın müsadirəsi baş tuta bilər. Yəni burada söhbət tərəflər arasında məhkəmə hökmlərinin qarşılıqlı tanınmasından gedir. Belə bir mexanizm mövcuddursa, ola bilər".

Hüquqşünasın sözlərinə görə, bu prosedurdan sonra əldə olunan dəqiq faktlar əmlakın aşkar edildiyi ölkənin müvafiq qurumlarına təqdim edilməlidir: "İşi aparan istintaq orqanı və ya məhkəmə müvafiq sənədləri həmin ölkənin əlaqədar qurumlarına təqdim edib, əmlaka və bank hesablarına həbs qoyulmasını tələb etməlidir. Həmin tələbin çərçivəsində, eyni zamanda, mənşəyi şübhəli olan əmlakı satılaraq Ermənistan dövlətinin büdcəsinə keçirilməsi də öz əksini tapmalıdır. Ancaq inanmıram ki, Rusiya buna razı ola. Onlar Köçəryanı azadlığa buraxdırmaq üçün digər təzyiq üsullarından Paşinyana qarşı istifadə edəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

Erməni tərəfi ənənəvi olaraq təxribat xarakterli yalan informasiyalar yaymaqda davam edir. Bu arada isə qarşı tərəf növbəti dəfə yalan informasiya uydurub. Belə ki, erməni tərəfinin yaydığı məlumata görə, müvafiq razılaşmaya əsasən, iyunun 25-də ATƏT-in müşahidə missiyası atəşkəslə bağlı Azərbaycan və qondarma "DQR" sərhədində monitorinq aparıb.

# Qondarma "DQR" ATƏT sədrinin şəxsi nümayəndəsini "üç qəpiklik" elədi - "hansı Azərbaycan-Artsax sərhədi?"

## *Əli Orucov: "Erməni tərəfinin yaydığı məlum yalan informasiyaya ATƏT-in reaksiya verməməsi rəzalətdir"*



ATƏT-in sözügedən məsələ ilə bağlı monitorinq aparması yeni deyil, amma bunu guya Azərbaycanla"DQR" arasında sərhəddə aparılması kimi təqdim etmək sırf təxribat və yalandır. Həyasızlığın dərəcəsinə baxın ki, erməni tərəfi ATƏT-i də öz yalan informasiyasına şərik edir. Bu azmış kimi, iddia edirlər ki, guya Azərbaycan monitorinq missiyasının işinə öz tərəfində şərait yaratmayıb və s. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsini öz üzərinə götürən ATƏT-in Minsk Qrupu erməni tərəfinin yaydığı bu yalan informasiyaya reaksiya vermir. Erməni tərəfi yazanda ki, ATƏT Azərbaycan-"artsax respublikası" sərhədində monitorinq aparıb, həmsədrlər niyə buna reaksiya vermir? ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik niyə demir ki, ay yaramazlar, biz qondarma "artsax adlı respublika" tanımırıqsa, onun hansı sərhədində monitorinq apara bilərik? Yazsaydılar ki, münaqişə tərəflərinin və ya Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində monitorinq keçirilib, bu başqa. Yoxsa bunu Azərbaycan-"DQR" sərhədi kimi təqdim etmək sırf təxribatdır və ATƏT-in borcudur ki, buna reaksiya versin. Başqa bir tərəfdən, qarşı tərəf iddia edir ki, Azərbaycan guya monitorinqdə maraqlı deyil. Nəzərə alsaq ki, Azərbaycan atəşkəsi pozmur, o zaman monitorinqin aparılmasında niyə maraqlı olmamalıdır? Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, erməni tərəfinin yaydığı məlum yalan informasiyaya ATƏT-in Minnsk Qrupunun reaksiya verməməsi rəzalətdir: "Buna başqa bir ad verməkdə çətinlik çəkirəm. Zatən mütəmadi olaraq bölgəyə səfər edən həmsədrlərin sifətini görməkdən xalq bezib. Xüsusən də illərdir heç bir işə yaramayan ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiki hər dəfə görmək adamda allergiya yaradır. Hesab edirəm ki, bütün bunlar ATƏT-in Minsk Qrupunun münaqişənin həllinə biganə yanaşmasının növbəti əyani göstəricisidir. Həmsədrlər buna ciddi yanaşsaydılar, dərhal adekvat reaksiya verib ortaya mövqe qoyardılar. Belə olduqda işğalçı tərəf bu cür təxribat və yalan xarakterli informasiyalar yaymağa cəsarət etməzdi.

### *"Münaqişənin həlli həmsədrlər üçün əsas məsələ deyil"*

Onlar görəndə ki, həmsədrlər Ermənistanın nazı ilə oynayır, o zaman istədiklərini edirlər. Başqa bir tərəfdən, ATƏT-in Minsk Qrupunun əsas məqsədi odur ki, müharibə başlamasın. Təəssüflər olsun ki, nəticəsiz danışıqlar fonunda buna nail də olurlar. Münaqişənin həlli həmsədrlər üçün əsas məsələ deyil. Belə olmasaydı, o zaman işğalçı tərəfə təzyiq göstərərdilər. Ona görə də sözügedən məlumata ATƏT-in reaksiya verməməsi mənə təəccüblü görünmədi".

***Vidadi ORDAHALLI***

Azərbaycan növbəti dəfə beynəlxalq tədbirə evsahibliyi etməyə hazırlaşır. Məlum olduğu kimi, iyunun 30-dan iyulun 10-dək Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. Mədəniyyət Nazirliyindən "Bakı-Xəbər"ə verilən məlumata görə, artıq Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsi üçün həyata keçirilən tədbirlər yekunlaşmaq üzrədir.

# Ermənilər UNESCO-nun sessiyasının Bakıda keçirilməsinə mane olmaq üçün yeni böhtan kampaniyasına başladı...




*"Azərbaycanda ermənilərin heç bir tarixi maddi abidəsi yoxdur, bu halda onlar necə dağıntıya məruz qala bilər?"*

## *Faiq İsmayılov: "Ermənilər bu cür şər-böhtan kampaniyası aparmaqla UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsinin qarşısını ala bilməzlər"*

Qeyd edək ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentinin müvafiq sərəncamı əsasında Təşkilat Komitəsi də yaradılıb. Komissiya bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün məqsədyönlü işlər həyata keçirib.

Bir neçə gün sonra paytaxtımızda keçiriləcək Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıqların yekunlaşdığı bir ərəfədə ermənilər Azərbaycana qarşı yeni təxribat, şər-böhtan kampaniyası aparmağa başlayıblar. Bədnam qonşularımız əsassız olaraq iddia edirlər ki, Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası Bakıda keçirilə bilməz, guya ki, Azərbaycanda "erməni abidələri məhv edilib, dağıdılıb". Əlbəttə, bu, növbəti erməni saxtakarlığından başqa bir şey deyil.

Ermənilərin UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsinə qarşı həyata keçirdikləri şər-böhtan kampaniyası ilə bağlı Mədəniyyət Nazirliyindən "Bakı-Xəbər"ə bildirdilər ki, onların bu cəhdləri heç bir fayda verməyəcək. Bunun növbəti erməni təxribatı olduğunu deyən nazirlik təmsilçilərinin verdikləri məlumata görə, Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıq işləri çox yüksək səviyyədə aparılıb. Nazirlikdən bildirdilər ki, digər tədbirlər kimi, bu tədbirə də Azərbaycan böyük uğurla evsahibliyi edəcək.

**Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov bizimlə söhbətində bildirdi ki, Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi erməniləri əndişələndirdiyi üçün, onlar bu cür qara piar kampaniyasına başlayıblar.** "Qara məni basınca, mən qaranı basım" prinsipini irəli sürən ermənilər növbəti dəfə ifşa olunacaqları üçün, Azərbaycanla bağlı həqiqətə uyğun olmayan məlumatlar yayırlar.

"Azərbaycan tarixindən az-çox məlumatı olan insanlar bilirlər ki, ermənilər XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Cənubi Qafqaza köçürülüblər. Bu baxımdan ermənilərin yaratdığı hansısa bir tarixi-mədəni irsdən söhbət gedə bilməz. Onların Azərbaycanda heç bir maddi-mədəni irsi yoxdur. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsi erməniləri möhkəm narahat edir. Belə bir mötəbər tədbirin Bakının evsahibliyi ilə keçirilməsi onları qıcıqlandırır. Bilirik ki, Azərbaycan həm idman, həm iqtisadi, siyasi, həm də humanitar sahədə bir sıra beynəlxalq tədbirlərə uğurla evsahibliyi edib. Bir neçə gün sonra isə keçiriləcək tədbirə də Azərbaycanın uğurla evsahibliyi edəcəyi qətiyyən şübhə doğurmur. Həqiqət bundan ibarətdir ki, Azərbaycanda ermənilərin heç bir tarixi maddi abidəsi yoxdur, bu halda onlar necə dağıntıya məruz qala bilərlər? Amma Azərbaycanın saysız tarixi-mədəniyyət abidəsi erməni vandalizminin qurbanı olub. Biz özümüz UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında təqdim etmək üçün sərgi hazırlamışıq. 25-30 ildir ermənilər tərəfindən işğal altında saxlanan Azərbaycan torpaqlarında erməni tapdağındakı abidələrimizin təkcə 2645-i memarlıq və arxeoloji abidələrdir. Bundan başqa, bizim xatirə komplekslərimiz, heykəltəraşlıq abidələrimiz də ermənilər tərəfindən dağıdılıb, məhv edilib. Bu gün əlimizdə bunu sübut edən faktlar, sənədlər kifayət qədərdir. Ermənilərin də qorxusu budur ki, bu faktlar UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında təqdim edilsə, onlar növbəti dəfə ifşa olunacaqlar. İşğal altında olan abidələrimizə qarşı ermənilərin törətdikləri vəhşilikləri xaricdən Dağlıq Qarabağa gedən turistlər, bloqerlər də çox yaxşı bilirlər. Hətta onlar şəkillərində də bunu paylaşırlar. İşğal altında olan torpaqlarımızda abidələrimiz var ki, ermənilər o abidələri güllələyiblər, dağıdıblar. Bu abidələrlə bağlı da sənədlər əlimizdədir. Əlimizdə güllələnmiş heykəllərimizlə bağlı faktlar da var. Bundan başqa, digər abidələrimizin saxtakarlığa məruz qaldığı faktdır. Ermənilər 1954-cü ildə qəbul edilən Haaqa Konvensiyasının müvafiq bəndlərini də pozublar. Həmin Konvensiyaya görə, müharibə bölgəsində yerləşən abidələrin toxunulmazlıq təminatı var".

*"Belə bir mötəbər tədbirin Bakının evsahibliyi ilə keçirilməsi onları qıcıqlandırır"*

Ancaq ermənilərin bu qaydaları gözləmədiyini deyən F.İsmayılovun sözlərinə görə, onlar abidələrimizə qarşı vəhşiliklər törətməklə cinayətə əl atıblar. Ermənilərin Əsgəran qalasında, eləcə də alban dövrü xristian abidələrinə qarşı saxtakarlıqlar etdiyini deyən F.İsmayılovun sözlərinə görə, onlar dağıtdıqları abidələri indi də "bərpa" etmək istəyirlər. "Hesab edirəm ki, ermənilər bu cür şər-böhtan kampaniyası aparmaqla UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsinin qarşısını ala bilməzlər. Bu tədbir keçiriləcək, biz də orada öz sözümüzü deyəcəyik və bir daha erməni yalanını, saxtakarlığını ifşa edəcəyik" - deyə F.İsmayılov qeyd etdi.

***İradə SARIYEVA***

---

Məlum olduğu kimi, Avropa Şurasının Parlament Assambleyası (AŞPA) Rusiya nümayəndə heyətinin təşkilatın işində iştirak etməsinə imkan verən qətnaməni səs çoxluğu ilə qəbul edib. Rusiya nümayəndə heyətinin qayıtmasına Assambleyanın işində iştirak edən 190 deputatdan 118-i səs verib. Daha 62 nəfər qətnamənin əleyhinə səs verib, 10 nəfər isə bitərəf qalıb.

# Paşinyanın komanda üzvləri Rusiyanı AŞPA-da da vurdu...



## *Fikrət Sadıqov: "Erməni nümayəndə heyəti Rusiya ilə bağlı səsvermədə bu addımı atmaqla gülünc vəziyyətə düşdü"*

Rusiyanın əleyhinə səs verən ölkələrdən biri də Ermənistan olub.

Belə ki, AŞPA-dakı erməni nümayəndə heyətində müxalifət fraksiyalarının nümayəndələri Naira Zöhrabyan ("Çiçəklənən Ermənistan") və Edmon Marukyan ("İşıqlı Ermənistan") Rusiyanın AŞPA-ya qayıtması üçün səs veriblər, amma hakim "Mənim addımım" partiyasının iki deputatı Rusiyanın AŞPA-ya qayıtmasına imkan verən qətnaməni dəstəkləməyib. Daha dəqiq desək, Ermənistan parlamentinin Xarici əlaqələr üzrə daimi komitəsinin sədri Ruben Rubinyan qətnamənin qəbul edilməsinin əleyhinə səs verib, deputat Hovannes İgityan isə səsvermədə ümumiyyətlə iştirak etməyib. Onun adı lehinə və əleyhinə səs verən deputatların siyahısında yoxdur. Faktiki olaraq, sözügedən məsələdə erməni nümayəndə heyəti parçalanıb.

Qeyd edək ki, "Mənim addımım" fraksiyası parlamentin mütləq əksəriyyətini təşkil edən Ermənistan siyasi qüvvəsidir. Onlar bütün dünyanın qarşısında Rusiyanı dəstəkləməkdən imtina etdilər. Rusiya nümayəndə heyəti Krım məsələsi ilə əlaqədar AŞPA heyətində 2014-cü ildən iştirak etmirdi. O vaxta qədər erməni nümayəndə heyəti Rusiyanı dəstəkləyib. O baxımdan yaşanan bu rəzaləti ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bu, Paşinyan hakimiyyətinin uğursuz siyasətindən irəli gələn biabırçılıqdır:** "Rusiyanın AŞPA-ya qayıdışı bir sıra dövlətlərin razılığı ilə olub. Bir sıra dövlətlər, o cümlədən, iri Avropa dövlətləri - Fransa, İtaliya Rusiyanın lehinə səs veriblər. Bu özlüyündə reallığı əks etdirən bir seçim idi. Ermənistan isə səsvermədə biabırçı bir mövqe sergilədi. Onlar bununla həm Rusiyaya, həm də Qərbə yaxın olmaq istədilər. Bir növ, belə görünməyə çalışdılar. Ancaq bu tamamilə cəfəng yanaşmadır. Çünki Qərb buna səmimi yanaşmır. Onlar yaxşı bilirlər ki, Ermənistanın əsas sponsoru Rusiyadır. Ermənistan isə belə ikili oynamaqla Rusiyaya "şıllaq" atdı. Ona görə də erməni nümayəndə heyəti Rusiya ilə bağlı səsvermədə bu addımı atmaqla gülünc vəziyyətə düşdü. Çünki hamı yaxşı bilir ki, Ermənistana güzəştli şərtlərlə qazı, silahı satan Rusiyadır. O zaman bu komediya kimə lazım idi? Mənə elə gəlir ki, məsələyə hansı tərəfdən yanaşsaq, bu, Ermənistanın imicinə böyük zərbədir".

*"Mənə elə gəlir ki, məsələyə hansı tərəfdən yanaşsaq, bu, Ermənistanın imicinə böyük zərbədir"*

***Vidadi ORDAHALLI***

# Ermənistan sülh danışıqlarını uzatmaq üçün yeni seçki oyununa başlayır - hədəf Paşinyanın prezident olmasıdır...

**Ermənistanda baş verən son olaylar bu ölkənin daxilində ziddiyyətlərin daha da dərinləşməsi ilə yanaşı, İrəvan-Moskva münasibətlərində də artıq böyük çatlar yaradır. Xüsusən də Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın yenidən həbsə atılması artıq işğalçı ölkədə heç də sakit günlərin hökm sürməyəcəyinin növbəti başlanğıcı sayılır.**

Xatırladaq ki, Ermənistan Apellyasiya Məhkəməsi Robert Köçəryanın azadlığa buraxılması haqqında qərarı ləğv edib. Apellyasiya Məhkəməsi, həmçinin, Qarabağ separatçılarının liderlərinin Köçəryanın azadlığa çıxması üçün ödədikləri girovun onların özlərinə qaytarılması haqqında da qərar qəbul edib. Qeyd edək ki, məhkəmə qərarından sonra Köçəryan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin binasında yerləşən "İrəvan-Kentron" cəzaçəkmə müəssisəsinə gedərək təslim olub. Köçəryanın tərəfdarları onun həbsinə etiraz olaraq Milli Təhlükəsizlik Xidmətinin binası önündə davamlı aksiya keçirir. Aksiya iştirakçıları Köçəryanın azadlığa buraxılmasını tələb edərək, əslində bu addımın hökumətin xalqın diqqətini sosial-iqtisadi problemlərdən yayındırmaq məqsədilə atıldığını bildirirlər. Onlar sonadək mübarizə aparacaqlarını bəyan ediblər. Hesab olunur ki, baş verənlər fonunda "Qarabağ klanı" baş nazir Nikol Paşinyana qarşı daha aktiv şəkildə hərəkətə keçəcək. Onların əsas niyyəti Robert Köçəryanın həbsi fonunda yaranan gərginliyi daha da genişləndirmək, Paşinyanın hakimiyyətdə möhkəmlənməsinin qarşısını almaqdır. "Jamanak" nəşri öz mənbələrinə istinadən yazır ki, Nikol Paşinyan "Qarabağ klanı"nı əzib prezident olmağı düşünür: "Ermənistan rəhbərliyi Vaqe Qriqoryanın Konstitusiya Məhkəməsinin rəhbəri təyin edilməsindən sonra Konstitusiya islahatları keçirmək niyyətindədir. Onların məqsədi prezident idarə-üsuluna qayıtmaqdır. Baş nazir Nikol Paşinyan əmindir ki, ciddi rəqabətin olmadığı şəraitdə onu asanlıqla prezident seçəcəklər". "Qarabağ klanı" başa düşür ki, baş nazirdən sonra Paşinyan prezident postunu tutsa, bu klanın yenidən hakimiyyətə qayıtmaq şansı olmayacaq. Elə bu səbəbdən indidən Robert Köçəryanın ətrafında baş verənlərdən istifadə edib vəziyyəti gərginləşdirmək və Paşinyanı iqtidardan uzaqlaşdırmağı düşünürlər. Bunun üçün klan Rusiyanın da onlara yardım edəcəyini düşünür. "Jamanak" yazır: "Paşinyanın ilk hakimiyyəti dövründən etibarən özünü müxtəlif üsullarla biruzə verən rus-erməni münasibətlərinin axarında olmadığı sirr deyil. Köçəryanın həbsindən sonra Rusiya hakimiyyəti Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan vasitəsilə Nikol Paşinyana qarşı bir neçə tələb irəli sürüb. Təbii ki, ilk növbədə irəli sürülən tələbə Robert Köçəryanın məsələsi daxildir. Putinin dostunun məsələsi, nə qədər qəribə olsa da, müttəfiq ölkələr arasında münasibətlərin pozulmasına səbəb ola bilər. İkincisi sorosçuların hakimiyyətdən uzaqlaşdırılması, üçüncüsü isə Gümrüdəki məlum ABŞ laboratoriyalarının bağlanmasıdır".



Ermənistanın "Qraparak" nəşri də yazır ki, Paşinyana qarşı "Qarabağ klanı" Rusiyadan yararlanmağa çalışır: "Paşinyanın Rusiya ilə münasibətlərin parlaq olduğunu deməsinə baxmayaraq, real siyasət bunun tam əksini sübut edir. Robert Köçəryanla Rusiya səfirinin görüşməsinin ardından Xarici İşlər Nazirliyi səviyyəsində hesabat tələb olunması ətrafında yaranan qalmaqal səngiməmiş erməni-rus münasibətlərində yeni "parıltı" qeydə alınıb. Bu dəfə bu özünü AŞPA-da Ermənistan nümayəndə heyətinin Rusiya Federasiyasının nümayəndə heyətinə AŞPA-ya qayıtması qərarının səsverməsi zamanı qərarın əleyhinə səs verməsi, yaxud səsvermədə iştirak etməməsi ilə büruzə verib. Avropa Şurası Krım yarmadasının anneksiyasından sonra rusları səsvermə hüququndan və bir sıra digər hüquqlarından məhrum edib. Maraqlıdır ki, Ermənistan nümayəndə heyətinin AŞPA-da səsvermə hüququ olan 2 müxalifət deputatı Edmon Marukyan və Naira Zöhrabyan qərarın lehinə, nümayəndə heyətinin rəhbəri Rubinyan əleyhinə səs verib, digər nümayəndə Ovhanes İgidyan naməlum səbəbdən səsvermədə iştirak etməyib". Nəşr qeyd edir ki, bu qərar Rusiya səfirinin Köçəryanla görüş təşəbbüsünə cavab olaraq verilib: "Deyilənlərə görə, əslində Rubinyan səsvermə zamanı səhv etməyib. O, Paşinyan səviyyəsində qəbul edilən qərarı ifadə edib. Bu qərarın Rusiya səfirinin Köçəryanla görüş təşəbbüsünə cavab olaraq verildiyi bildirilir. Lakin onlar bu addımın erməni-rus münasibətlərində gərginlik yaradacağını dərk edərək "fırlatma" janrına keçiblər.

Əslində, AŞPA-nın tarixində ilk dəfə Ermənistan hakimiyyət nümayəndəsi Rusiyanın maraqlarına cavab verən təşəbbüsün əleyhinə səs verib. Elə bundan sonra Rusiyadan edilən müvafiq zəng Paşinyan hakimiyyətini "sudan quru" çıxmaq üçün yollar axtarmağa məcbur edib. Təlaşə düşən erməni hakimiyyətinin bəhanələrini isə Rusiya çətin qəbul edə. AŞPA-da səsvermə zamanı Rubinyan ruslara dərs vermək istəsə də, onun sevinci qısa sürüb. "İşıqlı Ermənistan" partiyasının rəhbəri Edmon Marukyan bildirib ki, Ermənistan nümayəndə heyəti tam tərkibdə qərarın lehinədir və Rubinyanla bağlı baş verən məsələ texniki xarakter daşıyır. Müxalifət deputatı olan Marukyan Rubinyanın qərarını təzyiq altında dəyişmədiyinə əmin etməyə çalışıb. Amma Rusiyada başqa cür fikirləşirlər".

İndi hesab edilir ki, "Qarabağ klanı" Rusiyadan yardım alaraq, ilk növbədə Ermənistan daxilində vəziyyəti gərginləşdirməyə çalışacaq. Bunun üçün sosial-iqtisadi probldemlər, Qarabağ münaqişəsi ətrafında baş verənləri yenidən qabardılır.

Robert Köçəryan özü də iddia edir ki, indiki hakimiyyət Qarabağla bağlı təhlükəli siyasət aparır. O hesab edir ki, Qarabağ indiki hakimiyyət üçün dəyər deyil: "İndiki hakimiyyət üçün Qarabağ ağır yükdür, dəyər deyil. 90-cı illərdə Levon Ter-Petrosyanın idarəçiliyi dövründə də belə olub. Şüuraltı olaraq, hakimiyyət düşünür ki, canını bu ağır yükdən necə qurtarsın". Eks-prezident deyib ki, onun həbsi də Qarabağa dair mövqeyi ilə əlaqədardır: "Mənim keçmişim o qüvvələri narahat edir ki, onlar Qarabağ münaqişəsinin ermənilərin maraqlarına uyğun şəkildə həllinin baş tutmamasına can atırlar". Bütün bunlar fonunda Ermənistanda qarşıdakı dövr ərzində gərgin vəziyyətin davam edərək yeni qarşıdurma həddinə çatması gözlənir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regional proseslərin labüd nəticəsi - Azərbaycan çox da uzaq olmayan zamanda Qarabağ danışıqlarını dayandıracaq

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




**Ərazilərinin bir hissəsi hələ də işğal altında qalan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həllinin daim masa üzərində dayanan əsas variantlardan biri olduğunu bəyan edir. Rəsmi Bakı onu da ən yüksək səviyyədə bildirir ki, aparılan sülh danışıqları yaxın tezlikdə istənilən nəticəni verməsə, hərb variantının işə düşməsi qaçılmaz olacaq.**

Bu məsələ Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev tərəfindən yenidən diqqətə çatdırılıb. Ali Baş Komandan bu xüsusda deyib: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir… Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək".

Beləliklə, Azərbaycan ən yüksək səviyyədə bəyan edir ki, ordusu doğma torpaqları işğaldan azad etməyə hazırdır. Bu isə həm də Ermənistan rəhbərliyinə ünvanlanmış kifayət qədər sərt hərbi mesaj sayılır. Düşmən yaranmış durumdan lazımi nəticə çıxarmayacağı təqdirdə, aydındır ki, ordumuzun hərəkətə keçməsi qaçılmaz olacaq. Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toyvo Klaar da hadisələrin məhz bu səpkidə inkiaşf edə biləcəyini istisna etmir. "Azadlıq" radiosunun erməni xidmətinə müsahibəsində diplomat bildirib ki, Qarabağ münaqişəsi zonasında situasiya partlayış təhlükəlidir: "Bizim baş nazir Paşinyanla görüşümüz oldu və əlbəttə, Dağlıq Qarabağ haqda da danışdıq, nazirlərin Vaşinqtondakı son görüşünü müzakirə etdik. Və son bir ay-ay yarımda təmas xəttində gərginliyin artmasının şahidi olduğunu dedik. Situasiya olduqca kövrəkdir. Bu baxımdan insan itkiləri ilə nəticələnən atışmalar olur. Və məhz bu situasiyanı aradan qaldırmaq üçün danışıqlar yolu ilə daha uzunmüddətli və möhkəm sülh prosesinə doğru getmək lazımdır. Nə qədər ki, hər iki tərəfin əlində böyük sayda hərbi qüvvə və texnika var, situasiya partlayış təhlükəli olaraq qalacaq, hər şey baş verə bilər".

Ermənistanın "Past" nəşri isə yazır ki, əslində, Qarabağ münaqişəsinin hərbi həlli bir çox parametrlər baxımından İrəvan üçün qətiyyən sərfəli deyil. Qəzet qeyd edir ki, bunun ümdə səbəblərindən biri Azərbaycanın ötən illər ərzində hərbi cəhətdən kifayət qədər güclənməsi və yeni silahlar almasıdır. Vurğulanır ki, Azərbaycan 2016-cı ilin aprelində 1990-cı illərin ölkəsi olmadığını nümayiş etdirib və son 3 il ərzində də hərbiyə böyük diqqət, vəsait ayırıb. Məhz bu hal yeni savaşın Ermənistan üçün nə qədər böyük təhdid yaratdığını aydın nümayiş etdirir. Bununla yanaşı, qəzet yazır ki, regionda geosiyasi vəziyyət də Ermənistan üçün əlverişli deyil və yeni Qarabağ savaşında İrəvanın kənardan yardım ala bilməyəcəyi qaçılmazdır: "Gürcüstanda, İranda baş verənlər Ermənistan üçün heç də sərfəli sayılmır. Məsələn, Yuxarı Lars keçid məntəqəsi bağlanarsa, Ermənistan iqtisadiyyatının "axan damarı" kəsilə bilər". Nəşrə görə, baş verənlər ayıq-sayıq olmağı, təhlükəsizlik çağırışlarına cavab verməyə hazır olmağa tələb edir: "Baş nazir Nikol Paşinyanın rəhbərliyi altında Təhlükəsizlik Şurasının növbəti iclası keçirildi. O bildirib ki, Təhlükəsizlik Şurasının keçən iclasından sonra Ermənistan ətrafındakı təhlükəsizlik vəziyyəti azalmayıb, əksinə, ətrafında müəyyən proseslər baş verib. Baş verənlər ayıq-sayıq olmağı, təhlükəsizlik çağırışlarına cavab verməyə hazır olmağa tələb edir. Paşinyan Təhlükəsizlik Şurasının iclasında bölgəyə dair vəziyyətlə bağlı məsələlərin də müzakirə edildiyini bildirib. Müzakirə olunan məsələlər təhlükəsizlik çağırışlarının layiqincə idarə edilməsinə xidmət göstərməlidir. Gürcüstan və İran ətrafında baş verən proseslərin inkişafının Ermənistan üçün həyati əhəmiyyət daşıması, həmçinin bölgədəki gərginlik mühitinin artması Dağlıq Qarabağ probleminin nizamlanması prosesinə təsir etməklə ön xəttə müəyyən risqlərin yaranmasına səbəb ola bilər. Gürcüstandakı proseslər siyasi xarakter daşıyır, Ermənistanın qonşu ölkəsi Gürcüstan və strateji tərəfdaşı Rusiya münasibətlərindəki gərginlik İrəvandan tarazlaşdırılmış xarici siyasət həyata keçirilməsini tələb edir. Əgər proseslər qeyri-qənaətbəxş inkişaf edər, Yuxarı Lars keçid məntəqəsi bağlanarsa, Ermənistan böyük təhlükə altında qalacaq. Məhz bu vəziyyətdə Qarabağ savaşının yenidən başlanması Ermənistan üçün təhdidlərin miqyasını gözlənilməz dərəcədə yüksəldəcək. Bu mənada, yaranan vəziyyət İrəvandan olduqca həssas Qarabağ siyasəti yürütməyi tələb edir. Hər halda, Azərbaycanı savaşa sövq etmək əlverişli deyil ".

Bununla yanaşı, İran-ABŞ münasibətlərində baş verən gərginliyin Ermənistanı getdikcə daha çətin duruma salması da xüsusi diqqət mərkəzində yer alır. Qəzet yazır ki, məsələ Ermənistanın Qarabağ münaqişəsi, bölgədə hökm sürən vəziyyət və beynəlxalq münasibətlərdəki baxışı ilə sıx əlaqədardır. Erməni politoloq Suren Sarkisyan bununla bağlı qeyd edib ki, ABŞ-İran birbaşa qarşıdurmasının ən arzuolunmaz ölkəsi Ermənistandır və bu, rəsmi İrəvana sərf etmir: "Çünki Ermənistan tərəflərin qarşıdurmasından ən çox zərərçəkən tərəf ola bilər. İrana qarşı birbaşa hərbi əməliyyatlar açıq-aşkar olmayacaq, lakin prosesin sürətlə inkişaf etdiyi nəzərə alınmalıdır. Ermənistan İrana qarşı hərbi əməliyyatların onun üçün fəlakət yaradacağını düşünməlidir. ABŞ tərəfinin İrana doğru hərbi qüvvə göndərməsi və peşman olaraq ləğv edilməsi haqqında yayılan məlumatlar hələ amerikalı rəsmilər tərəfindən inkar edilməyib. Amma İrana qarşı savaş başlasa, bu, Ermənistanın İran üzərindən heç bir yardım almayacağı anlamına gəlir. Bax, onda yaranmış vəziyyət Ermənistanı daha çətin duruma salacaq. Azərbaycanın bundan istifadə etməyəcəyinə dair heç bir təminat yoxdur. Bakı istənilən an savaşa başlaya biləcəyini bəyan edir".

Beynəlxalq və təhlükəsizlik məsələləri üzrə ekspert Emma Beqicanyan isə öz növbəsində bildirib ki, ABŞ və İran arasında münasibətlər davamlı olaraq gərgin olsa da, birbaşa toqquşma olmayacaq: "Ona görə ki, həm Amerika, həm də İran birbaşa toqquşmanın olmasında maraqlı deyillər. Ermənistan isə neytral, tarazlaşdırılmış siyasət yürütməlidir. Çünki istənilən səhv mövqe hər iki tərəfdən hiss ediləcək. Hazırda Ermənistan gərginliyin azaldılması üçün rol oynaya biləcəyi halda zəiflik nümayiş etdirir. Azərbaycanı isə bu durumda maraqlanıdaran məsələ Qarabağı necə geri qaytaracıdır. Bakı bunu ya danışıqlar, ya da savaş yolu ilə etməyə hazırdır. Regionda hadisələrin inkişafı da Azərbaycanın leyhinə işləyir. Ermənistan bu məqamı mütləq nəzərə almalıdır".

Bütün bu qeyd edilənlər aydın surətdə göstərir ki, Azərbaycanın savaş mesajları, əslində işğalçı ölkədə getdikcə daha böyük təşviş yaradır. Politoloq Qabil Hüseynli də ermənilərin qorxmaqda haqlı olduğunu vurğulayır. Politoloqun sözlərinə görə, Azərbaycanın mənəvi haqqı var ki, istənilən zaman istila edilmiş torpaqlara hücum edərək geri alsın və burada məskunlaşmış əhalini və Ermənistan ordusunun əsgərlərini uzaqlaşdırsın: "Buna istər müharibə desinlər, istər anti-terror əməliyyatları desinlər, istərsə də separatçılığa qarşı mübarizə adlandırsınlar, bütün beynəlxalq hüquq normalarında Azərbaycanın cəhdləri haqlı dəyərləndiriləcək. Mütləq həyata keçirilməlidir.

Ermənilər öz hərəkətlərini müharibə adlandıra bilər. Lakin Azərbaycanın həyata keçirdiyi müharibə deyil, torpaqlarının azad olunma təşəbbüsləridir. BMT-nin nizamnaməsinin 51-ci maddəsində də deyilir ki, təcavüzə məruz qalmış ölkə öz torpaqlarını azad etmək üçün özü və ya hər hansı dövlətin qüvvələrindən istifadə edə bilər. Biz hələ ki, öz qüvvəmizlə bunu həyata keçirmək niyyətindəyik. Bu niyyəti açıq şəkildə də bəyan etmişik. Necə yəni, bizim torpaqlarımıza Suriyadan, İraqdan erməni köçürülür, məskunlaşdırılır, biz isə bunu seyr etməliyik? Dünyada bu cür ədalət prinsipi yoxdur. Heç dünya ictiamiyyəti də bunu qəbul etmir. Ermənistanın rəsmi nümayəndələri danışıqlara gəlib bizimlə zarafat edir, nağıl danışır, ağlına gələn bəyanatları verir. Danışıqların isə predmeti olmalıdır, nəticə ortaya qoyulmalıdır. Masada müzakirəyə hazır məsələlər olmalıdır. Bunların olmadığı yerdə Azərbaycan sülhə nail olmağı uzun müddət gözləməyəcək. Azərbaycan çox da uzaqda olmayan bir zamanda danışıqları dayandıracaq və Ermənistan o zaman Azərbaycanın müdafiə naziri Zakir Həsənov və onun komandası ilə danışmalı olacaq. Azərbaycan xalqı da vətəninin müdafiəsinə qalxacaq və bu işi dəstəkləyəcək". Digər ekspertlər də vurğulayır ki, Azərbaycan əsgərinin hərəkətə keçməsinin işğalçı üçün ağır nəticələri olacaq.

Ordumuzun döyüş qabiliyyəti və hərbi arsenalındakı silahlar mümkün müharibədə nəticəni bəri başdan müəyyən etməyə imkan verir. Erməni ekspertlər də etiraf edirlər ki, Azərbaycanın son dövrlər nümayiş olunan hava hücumundan müdafiə sistemləri və raket kompleksləri işğalçı Ermənistanı sözün həqiqi mənasında dəhşətə salır. Məhz bütün bunlar Qarabağda baş verə biləcək müharibədə işğalçı ölkənin hərbi qüvvələrini darmadağın etməyə yetərlidir. Ermənistan lazımi nəticə çıxarıb müvafiq addımlar atmasa, böyük zərbələrə də hazır olmalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermәni mediasının verdiyi mәlumata görә, sabiq prezident Robert Köçәryan yenidәn hәbs edilib. Bu barәdә Ermәnistan Apellyasiya Mәhkәmәsi qәrar verib. Apellyasiya mәhkәmәsi İrәvan mәhkәmәsinin 18 mayda Köçәryanın zaminlә azadlığa buraxılması haqqında qәrarını lәğv edib vә onun yenidәn hәbs edilmәsi barәdә qәrar çıxarıb. Bununla mәhkәmә baş prokurorluğun verdiyi protesti tәmin etmiş olub. Sabiq prezidentin qәrara etiraz üçün 15 gün vaxtı var.**

# Paşinyan Köçәryana zamin durmuş qondarma "DQR" "prezidentlәrini" heçә saydı - Ermәnistan - "DQR" qırğını qızışacaq...



## *Hatәm Cabbarlı: "Rusiya onun әlindәn alınan "kartı" asanlıqla Paşinyana tәslim etmәyi düşünmür"*

Qeyd edәk ki, Köçәryan separatçı Qarabağ rejiminin indiki vә keçmiş "prezidentlәri" Bako Saakyan vә Arkadi Qukasyanın zәmanәtilә azadlığa buraxılmışdı. O, 2008-ci il 1-2 mart hadisәlәrindә hakimiyyәti devirmәkdә ittiham edilir. Hәmin hadisәlәrdә 10 nәfәr ölmüş, 230 nәfәr yaralanmışdı. Bәllidir ki, Köçәryanın hәbsi, sonra azadlığa buraxılması Ermәnistan daxilindә ciddi qarşıdurmaya sәbәb olub. İddialara görә, onun yenidәn hәbs edilmәsi "DQR"- lә Ermәnistan rәhbәrliyinin onsuz da gәrgin olan münasibәtlәrini daha da alovlandırcaq. Bu iddianı nә dәrәcәdә әsaslı saymaq olar? Siyasi elmlәr doktoru Hatәm Cabbarlı "Bakı-Xәbәr"ә bildirdi ki, bu vәziyyәt Ermәnistandakı daxili gәrginliyi bir qәdәr dә artıracaq: "Rusiyanın Ermәnistandakı sәfirinin Robert Köçәryanla görüşmәsindәn sonra hakimiyyәt hadisәlәrә nәzarәti itirdiyini gördü. Buna görә dә, Nikol Paşinyan mәhkәmә-hüquq sistemi üzәrindәki tәzyiqlәrini bir qәdәr dә artırdı. Bunun nәticәsindә o, Köçәryanın yenidәn hәbsinә nail ola bildi. Әslindә Köçәryanın qondarma "DQR"in indiki vә sabiq "prezidentlәri" tәrәfindәn zaminә götürülüb azadlığa buraxılması belә qanunsuz idi. Çünki belә ciddi ittihamla hәbs edilәn sabiq prezidentin azad edilmәsi hüquqi deyil, siyasi tәzyiq mahiyyәti daşıyırdı. Köçәryanın yenidәn hәbsә salınması gözlәnilәn idi. Bu addım Ermәnistanın daxilindә Paşinyanın mövqelәrinin güclәnmәsinә xidmәt edir. Eyni zamanda bu, Rusiyanın Robert Köçәryan kartı ilә oynamasının qarşısını ala bilir. Güman edirәm ki, Robert Köçәryanın bu dәfә azadlığa çıxmaq şansı olmayacaq. Ona elan edilәn ittihamlar üzrә cәza tәyin olunacaq. Köçәryan faktoru artıq ölkә sәrhәdlәrini dә aşır. Burda ilk ağıla gәlәn Avropanın insan haqları tәşkilatlarının tәpkisi ola bilәrdi. Amma biz görürük ki, hәmin qurumlar susqun mövqe tutur. Nәzәrә çarpan odur ki, bu mәsәlәyә daha çox Rusiya diqqәt ayırır. Rusiyanın rәsmi nümayәndәsi olan sәfirin Köçәryan vә Baş prokurorla tәkbәtәk görüşmәsi onun bu mәsәlәdәki çabaları vә narahatlığından xәbәr verir.

**Hәtta kәnardan Rusiya Röbert Köçәyanın vәkilliyini edirmiş kimi durumda olması tәsirini bağışlayır. Tәbiidir ki, Rusiya "DQR" kartı ilә hadisәlәrә tәsir etmәyә çalışacaq. Bu da Paşinyanla "DQR" rәhbәrliyi arasındakı gәrginliyi daha da qızışdıracaq. Rusiya onun әlindәn alınan "kartı" asanlıqla Paşinyana tәslim etmәyi düşünmür".**

*Mәhәmmәdәli QӘRİBLİ*

---

**Ermәnistanın Fransadakı sәfiri bildirib ki, yaxın aylarda Makronun Ermәnistana sәfәri reallaşa bilәr. Onun sözlәrinә görә, iki ölkә arsındakı münasibәtlәrin inkişafı çox vacib xarakter daşıyır. Hәtta bu sәfәrin zәruriliyi dә vurğulanır. Ermәni mediası iddia edir ki, Ermәnistan yaxından әmәkdaşlıq etdiyi Ermәnistan-Yunanıstan-Kipr formatına Fransanı da qoşub trionu kvartetә çevirmәk niyyәtinin olduğunu gizlәtmir.**

# Ermәnilәrin Ermәnistan-Yunanıstan-Kipr triosuna Fransanı da qoşaraq "kvartet" yaratmaq planı...



## *Elşәn Hәsәnov: "Fransa hәmin lazımsız formatda tәmsil olunaraq Türkiyә kimi ölkә ilә münasibәtlәrini gәrginlәşdirmәk istәmәz"*

Çox maraqlıdır ki, ermәnilәr bu formatla bağlı müzakirәlәri Türkiyәdә keçirilәn son bәlәdiyyә seçkilәrindә müxalif namizәdin qәlәbәsi ilә dә әlaqәlәndirmәyә çalışırlar. Ermәnilәrin Fransanı da hәmin trioya qatmaq cәhdlәri sәmәrә verәcәkmi?

**Azәrbaycan Sosialist Partiyasının sәdri Elşәn Hәsәnov qәzetimizә bildirdi ki, Azәrbaycanın müxtәlif sahәlәrdә әldә etdiyi uğurlar düşmәni әmәlli-başlı tәlaşa salır:** "Bu sәbәbdәn dә onlar müxtәlif alterantivlәr axtarmağa çalışırlar. Bilirsiniz ki, Azәrbaycan müxtәlif ölkәlәrlә iki vә üçtәrәfli formatlarda uğurla әmәkdaşlıq edir. Hәtta hәmin formatların әksәriyyәtinin tәşәbbüskarı belә ölkәmizdir. Ermәnistan bu addımları ata bilmir. Ona görә dә özünü gülmәli vәziyyәtә salır.

Bu sırada Ermәnistan-Yunanıstan-Kipr "sivil platforması" kimi absurd vә mәnasız bir ifadәni belә işlәtmәkdәn utanmırlar. Ermәnistanın "sivilliyi" qәtlә yetirilәn günahsız insanların qanlarında yerini tutub. Ondan başqa ermәnilәrin "sivilliyi"ni sübut edәn fakt yoxdur. Bütün bunların fonunda, regionun geosiyasi mәnzәrәsi üzәrindә geniş dayanmağa ehtiyac duyuruq. İndi dә bu formatda Fransanın da tәmsil olunacağına dair fәrziyә irәli sürürlәr. Onları kökündәn narahat edәn mәsәlә başqadır. Çünki bilirlәr ki, Fransadakı mövqelәri ciddi sarsılıb. Oradakı güclü ermәni diasporu belә ermәnilәrin üzlәşdiklәri "problemi" yoluna qoya bilmәdi. Söhbәt qondarma rejimin әrazisindә olan vә işğal altında saxlanan şәhәrlәrin Fransanın әyalәtlәri ilә "qardaşlaşması"ndan gedir. Bilirsiniz ki, son vaxtlar Fransa mәhkәmәsi bu mәsәlәdә obyektiv mövqe tutaraq hәmin "müqavilәlәri" lәğv edib. Faktiki olaraq, Fransanın bәzi әyalәtlәri ilә qondarma rejim arasındakı bağlar kәsilib. İndi ermәnilәr düşünürlәr ki, Makronu ölkәsinә dәvәt etmәklә bu mәsәlәdә irәlilәyişә nail ola bilәrlәr. Makronun sәfәri ilә bağlı dәqiq mәlumat yoxdur. Hәtta belә sәfәr olsa belә, bu o demәk deyil ki, Fransa mütlәq mәnada hansısa, özünә heç bir aidiyyәti olmayan әmәkdaşlıq formatında tәmsil olunacaq. Çünki hiss edilir ki, ermәnilәr hәmin formata antitürk mövqeyindә olan ölkәlәri cәmlәyiblәr. Fransa Avropanın böyük ölkәsidir. Onun Türkiyә ilә çox geniş münasibәtlәri mövcuddur. Bu, bütün sahәlәri әhatә edir. Fransa, eyni zamanda, ATӘT-in Minsk Qrupunun hәmsәdridir.

*"Bunların hamısı mәkrli ermәni tәbliğatından qaynaqlanır"*

**Bütün bu müqayisәlәrdәn belә nәticә çıxarmaq olar ki, Fransa hәmin lazımsız formatda tәmsil olunaraq Türkiyә kimi ölkә ilә münasibәtlәrini gәrginlәşdirmәk istәmәz. Eyni zamanda, bu addımı ilә hәmsәdr kimi olan neytrallığına şübhә salmaqda maraqlı olmaz. Bunların hamısı, sadәcә, mәkrli ermәni tәbliğatından qaynaqlanır. Onlar Fransa mәhkәmәlәrindәn aldıqları son zәrbәlәri heç cür hәzm edә bilmәdiklәri üçün, belә addımlar atmaq istәyirlәr".**

*Mәhәmmәdәli QӘRİBLİ*

**Dünya geosiyasətində baş verənlər bu gün qlobal iqtisadiyyata da əsaslı surətdə təsir göstərməkdədir. Xüsusən də ABŞ-ın bir çox ölkələrə qarşı iqtisadi təzyiq mexanizmlərini işə salması milli valyutasını təsir vasitəsinə çevirməsi fonunda qlobal miqyasda dollarla bağlı yeni bir vəziyyət yaradır.**

# Tramp ümumdünya təsirli "dollar inqilabına" hazırlıqlara başladı...

## *Dollar manat qarşısında ucuzlaşsa, nə baş verəcək...*



Bir çox dövlətlərin dollardan imtina prosesi getdikcə geniş vüsət alır. Artıq hadisələrin inkişaf axarı ABŞ-ın özündə də narahatlıq yaradır. Elə bu fonda yayılan məlumatlara əsasən, ABŞ dollarla bağlı yeni siyasətə start verməyə hazırlaşır. Bu siyasət dolları digər valyuatalar, o cümlədən manat qarşısında ucuzlaşdırmağı özündə ehtiva edir.

ABŞ-ın ən böyük maliyyə qurumlarından olan "Bank of America" belə bir vaxtda məlumat yayıb ki, ABŞ prezidenti Donald Tramp yaxın zamanda dolların devalvasiyası ilə bağlı qərar verəcək. Bankın analitikləri Xəzinə Nazirliyindən təlimat gələn kimi Nyu-York Mərkəzi Bankının dolları sataraq başqa valyutalar almağa başlayacağını və nəticədə dolların ucuzlaşacağını açıqlayıb. ABŞ iqtisadiyyatı ötən il 2,9 faiz inkişaf edib, lakin ilin sonuna doğru ciddi şəkildə durğunluq yaranıb. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, qarşıdakı iki ildə ABŞ-ın ümumdaxili məhsulu azalacaq. Bu durumda Tramp hesab edir ki, dollar ucuzlaşacaqsa, bu, xarici ölkələrin ABŞ məhsullarını almasını təşviq edəcək.

Baş verənlər fonunda artıq indidən dolların məzənnəsinin dünyanın bir sıra valyutaları ilə müqayisədə aşağı düşdüyü qeydə alınır. Baş verənlər haqda "RİA Novosti" yazır: "Birləşmiş Ştatların ən böyük maliyyə institutlarından olan "Bank of America" bir qədər əvvəl administrasiyanın milli valyutanı devalvasiya etmək niyyəti haqqında xəbərdarlıq verib. Bankda düşünürlər ki, Tramp valyutaya müdaxilə qərarını iqtisadiyyatın sabitləşdirilməsi şüarı altında qəbul edəcək. "Bank of America"nın iqtisadçısı Mişel Mayer və bankın valyuta strategiyası üzrə eksperti Ben Rendol bildirib:"Federal Ehtiyat Sisteminin faiz dərəcələrini azaltması kifayət etməsə, rəsmi valyuta müdaxiləsi ehtimalı böyüyəcək". Donald Tramp açıq şəkildə "güclü dollar" siyasətindən imtina edib. Onun fikrincə, həddindən çox bahalı dollar Amerika istehsallı məhsulların və xidmətlərin ixracına mane olur və ticarət balansında mövcud defisiti daha da dərinləşdirir: 2018-ci ildə defisit 621 milyard dollara çatıb. Tramp martda bəyan edib:"Mənə güclü dollar lazımdır, eləsi ki, ölkəmiz üçün faydalı olsun - amma digər ölkələrlə biznes aparmağa imkan verməyəcək qədər güclü dollar yox". Dollar ucuzlaşsa, xarici müştərilər üçün amerikan mallarını almaq daha sərfəli olacaq. Bu isə istehsalı artıracaq və xarici ticarət defisitini ixtisar edəcək.

Ekspertlər ehtiyat edirlər ki, Trampın və maliyyə naziri Stiven Mnuçinin irəli sürdüyü "zəif dollar" siyasəti nəticə etibarilə iqtisadi artımı sarsıdacaq. Tanınmış bank sektoru analitiki Dik Bove "CNBC"yə bildirib ki, uzunmüddətli perspektivdə bu cür strategiya səhvdir - o yalnız ölkə borclarının dəyərini artırır: "Siyasət dolların stabilliyinə qarşı yönəlsə, xaricilər Amerikanın dövlət borcunu maliyyələşdirməyəcək. Dollar isə dünyanın ehtiyat valyutası kimi qəbul edilir və ABŞ da bundan tamamilə asılıdır". Yəni dolların daha da zəifləməsi onun ehtiyat valyutası kimi statusunu təhlükə altına atır. Qeyd edək ki, xarici kreditorlar artıq sürətli şəkildə dollardan imtina edir: onun ümumdünya valyuta ehtiyatlarında payı əsrin əvvəli ilə müqayisədə ən aşağı həddə çatıb. 2008-ci ilin maliyyə böhranı zamanı dünyanın mərkəzi banklarının ehtiyatlarında ABŞ valyutasının payı ən yüksək səviyyədə idi. Həmin dövrdən bəri isə onun payı 7 faiz bəndi azalıb".

Bununla yanaşı qeyd olunur ki, ABŞ-ın sürətlə artan borcu da dollar ətrafında ucuzluşma meyllərini sürətləndirir. Hesablamalara görə, borcun artım tempi indiki şəkildə qalarsa, ABŞ-ın dövlət borcu qarşıdakı illərdə ÜDM-in 144%-i həcmində olacaq.

Bu barədə ABŞ Konqresinin Büdcə İdarəsinin məruzəsində deyilir. 2019-cu il üçün isə Amerikanın dövlət borcu ÜDM-in 78%-ni təşkil edir. "RİA Novosti" yazır: "Hazırda ABŞ federal büdcəsi kritik vəziyyətin astanasındadır. 2018-ci il ərzində büdcə defisiti 779 milyard dollara çatıb. Bu, 2012-ci ildən bəri ən yüksək göstəricidir. Konqresin Büdcə İdarəsinin məlumatına görə, 2019-cu ildə bu göstərici 900 milyard dollara çataraq ÜDM-in 4 faizini keçəcək. Bu rəqəm ölkənin bütün müdafiə büdcəsindən artıqdır.

Xarici borcun ödənilməsi üçün edilən böyük xərclər ABŞ büdcəsində bu nəhəng defisitin yaranmasında əsas rollardan birini oynayıb. 2018-ci ilin büdcəsində ən böyük xərclər sosial təminat proqramlarına (987 milyard dollar) və müdafiəyə (874,4 milyard dollar) yönəldilib. "Medicare" və "Medicaid" adları ilə tanınan tibbi sığorta və yardım proqramları üçün müvafiq olaraq 582 və 400 milyard dollar həcmində xərclər nəzərdə tutulub. Dövlət borcunun ödənilməsi üçün isə nə az, nə çox - 310 milyard dollar ödənilib. Harvard Universitetinin professoru, İqtisadi Məsləhətçilər Şurasının keçmiş sədri Martin Feldştayn deyir: "Büdcə defisitinin və dövlət borcunun sürətlə böyüməsi Amerika federal hökuməti qarşısında duran ən təhlükəli problemdir". İqtisadçı durumu şərh edərkən bildirib ki, borc böhranının aradan qaldırılması üçün dövlət ya vergiləri artırmalı, ya da xərcləri azaltmalıdır. Lakin birinci variant iqtisadi artımı yavaşladacaq, ikincisi isə borc və ÜDM arasındakı nisbəti pisləşdirəcək. Ekspert rəyinə görə, "müdafiəyə ayrılan xərclərin müəyyən səviyyədən aşağı endirilməsi mümkün deyil". Bu xərclər nəinki ümumi daxili məhsulun 3 faizindən aşağı endirilməyəcək, eyni zamanda artırıla da bilər. Buna görə də hökumət üçün böyüyən defisiti aradan qaldırmağın yeganə yolu sosial ödəniş və müavinətləri ixtisar etməkdir. Artıq 2020-ci maliyyə ili üçün büdcə layihəsində də bu nəzərdə tutulub: müdafiə xərcləri 4,7 trilyon dollar olacaq, sosial xərclər isə bıçaq altına düşəcək. Feldştaynın fikrincə, sosial xərclər onsuz da büdcə üçün çox böyükdür. İqtisadçı hətta sosial təminatı daha da "boğmaq" üçün pensiya yaşını 70-ə qədər artırmağı və yaş həddini həyat davamlılığına bağlamağı təklif etmişdi". Hazırda hadisələrin elə bu səpkidə inkişafı ABŞ iqtisadiyyatı və beləliklə dollar üçün ciddi təhdid yaradır. Məhz bu fonda dolların ucuzlaşması qaçılmaz sayılır və Ağ Ev özü də bilərəkdən buna gedir. Qarşıdakı günlər ərzində isə dolların bir çox valyutalar, o cümlədən manat qarşısında ucuzlaşması mərhələsinə şahidlik etmək olar.

***Nahid SALAYEV***

# Sosial islahatlar paketinin ölkədə kiçik və orta biznesin inkişafına təsir potensialları...

**İqtisadi və sosial məsələlərlə bağlı hələ bu il fevralın 25-də keçirilən müşavirədə Prezident İlham Əliyev 2019-cu ilin sosial inkişaf və əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bildirmişdi. "Biz əlavə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəltməliyik". Belə də oldu. Bir sıra artımlara qərar verildi.**



Bütün bunlarla yanaşı, dövlət başçısının iyunun 18-də imzaladığı 17 sərəncamla ilin əvvəlindən start götürən sosial islahatların ikinci mərhələsi başladı. Bu mərhələdə minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılacaq, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları artırılacaq. Artımlar, ümumilikdə, 20-50 faiz təşkil edəcək.

Belə ki, orta aylıq əməkhaqqı artımı ilə bağlı proqnoz bu il üçün 15 faizdir. Buna uyğun olaraq 2020-ci ilin 1 yanvar tarixindən bütün pensiyaçıların pensiyası indeksasiya nəticəsində əlavə 15 faiz artacaq.

## *Əli Əlirzayev: "Bütün bunlar birbaşa və dolayı olaraq sahibkarlığın inkişafına müsbət təsir edəcək"*

Beləliklə, hazırda 160 manat alan pensiyaçı oktyabrdan 200 manat, yanvardan isə 230 manat pensiya alacaq.

Bütün bu artımlar ölkədə müxtəlif sahələrin inkişafına təsir göstərir. Onlardan biri də kiçik və orta sahibkarlıqdır. Məsələ ondadır ki, sözügedən artımlar əhalinin alıcılıq qabiliyyətini və bu da tələbatı artırır. Tələb artığına görə sahibkarın daha çox məhsul istehsal etməsinə, əhaliyə göstərilən xidmətin həcminin genişlənməsinə iqtisadi zəmin yaranır. Bütün bunlar, əlbəttə ki, kiçik və orta sahibkarlığın inkişafına stimul verir.

Maraqlıdır, bəs ekspertlər sosial paketin bu yöndə faydasını necə dəyərləndirirlər?

*"Tələbat yarandığı üçün, sahibkarlar daha çox məhsul istehsal edərək bazara çıxarmaqda maraqlı olacaqlar"*

**Sözügedən məsələni dəyərləndirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, məlum artımlar bu və ya digər dərəcədə kiçik və orta biznesin inkişafına müsbət təsir edəcək:** "Məsələ ondadır ki, 2019-cu ilin əvvəlindən əməkhaqları, pensiyalar, təqaüdlər artırılıb. Bunun nəticəsində əhalinin gəlirləri artır. İyunun 18-də Prezidentin imzaladığı sərəncamla müəllimlərin, hərbçilərin, dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatlarda çalışanların əməkhaqlarıı artırılıb. Bu məqsədlə büdcədən illik əlavə 1 milyard manat xərclənəcək. Şübhəsiz ki, bütün bunlar birbaşa və dolayı olaraq sahibkarlığın inkişafına müsbət təsir edəcək. Tələbat yarandığı üçün, sahibkarlar daha çox məhsul istehsal edərək bazara çıxarmaqda maraqlı olacaqlar. Eyni zamanda, buna görə yeni iş yerləri yaratmalı olacaqlar. Deməyim odur ki, bütün bunlar bir-birilə sıx əlaqəlidir. O üzdən, hesab edirəm ki, ölkə əhalisinin gəlirlərinin artması kiçik və orta sahibkarlığın inkişafına stimul verir. Bu baxımdan artımların bu yöndə müsbət təsirləri olacaq".

***Vidadi ORDAHALLI***

# Otellər ulduz sayını artırsa da, xidmət səviyyəsi bərbaddır - Assosiasiya yoxlama anonsu verdi

**Yay fəslində insanlar istirahət üçün ya ölkə xaricinə üz tutur, ya da daxildə istirahət edirlər. Ölkə daxilində istirahət etmək istəyənlərin bir qismi rayonlarda fəaliyyət göstərən istirahət mərkəzlərinə yollanır. Bölgələrdə insanların rahat şəkildə istirahəti üçün 4-5 ulduz adı ilə otellər açılıb.**



Həmin otellərdə ulduz sayına uyğun xidmətin göstərilmədiyi bildirilir. Bunu tək sadə əhali deyil, eyni zamanda, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev də bildirir. O qeyd edir ki, otellərin ulduzlanması yeni sistemlə aparılacaq: "Otellər yenidən akkreditasiya olunacaq. Bununla ictimai qurum məşğul olacaq. Lakin sonda yekun qərarı biz verəcəyik. Bununla bağlı ictimaiyyətə 2 ay müddətində məlumat veriləcək".

F.Nağıyev qeyd edib ki, mövcud vəziyyətdə otellər göstərdiyi ulduzlara uyğun xidmət etmirlər: "Bakıda 100-dən çox fəaliyyət göstərən oteldə bu barədə problem yoxdur. Bakıda otellərin ulduzları ilə göstərdikləri xidmətin keyfiyyəti arasında fərqin olması faktı çox cüzidir, ancaq regionlarda bu problem müşahidə edilir".

## *Elçin Rüstəmov: "Regionlarda fəaliyyət göstərən otellər heç nəyə əsaslanmadan, heç bir müqavilə öhdəliyi olmadan ulduz sayını artırırlar"*

**Regionlardakı otellərin ulduz sayına uyğun xidmət göstərməsi və bu məsələyə yenidən baxılması barədə fikir bildirən turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, otellərdə ulduz verilmə mexanizminə yenidən baxılmalıdır:** "Otellərə ulduzların yenidən verilməsinə ehtiyac var, çünki ulduzların tətbiqi otelin keyfiyyətinin göstəricisidir. Hər bir ulduzun özünün dünya praktikasında nəzərdə tutulmuş standartları var. Həmin standartlarda otellərdə vanna otaqlarının sayı belə nəzərə alınmaqla ulduzların sayı müəyyən edilir.

*"...dünyada ənənəvi qəbul edilən 4 ulduz otellərin standartlarına cavab vermir"*

Hər bir otel ulduzların sayı çərçivəsində öz işini qurmağa çalışır. Azərbaycanda bir qisim 4 ulduzlu otelin xidmətləri çox təəssüf ki, dünyada ənənəvi qəbul edilən 4 ulduz otellərin standartlarına cavab vermir və onların xidmətləri səviyyəsində deyil. Əslində, xaricdən gələn turist Azərbaycanda 4 ulduzlu otelin xidmət keyfiyyəti haqqında qabaqcadan məlumatlı olmalıdır. Xaricdən gələn turist 4 ulduzlu və ya 3 ulduzlu otelə gedəndə ona uyğun hansı xidməti alacağını qabaqcadan bilməlidir. Bir çox hallarda gedəndə bəlli olur ki, 4 ulduzlu otel heç də dünya ölkələrində 3 ulduzlu otelin təklif etdiyi xidmətləri belə təklif etmir".

**Həmsöhbətimiz onu da vurğuladı ki, hər bir otel göstərdiyi xidmətin keyfiyyət səviyyəsinə uyğun ulduz almalıdır: "Bu, birdəfəlik medal deyil. Bir neçə ildən bir keçirilən akkreditasiya nəticəsində bəzi mehmanxanaların ulduzlarının sayı artırıla və ya azaldıla bilər. Avropa təcrübəsinin də tətbiq olunması təqdirəlayiqdir. Çünki bir neçə ildir Bakıda və regionlarda otellərin sayı artıb. Həmin otellər heç nəyə əsaslanmadan, heç bir müqavilə öhdəliyi olmadan ulduz qoyurlar".**

***Günel CƏLİLOVA***

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

*Və yaxud, Azərbaycanın mətbuat "ayinəsində" nələri görürük...*

**Məlum həqiqətdir ki, sivil cəmiyyətlərdə toplumun əsas azadlıqları mətbuatdan başlayır. Bunun əsas səbəbi də odur ki, mətbuat azad toplumların ən şəffaf güzgüsü olaraq, cəmiyyət həyatında baş verən bütün neqativ və pozitivləri özündə olduğu kimi əks etdirir, beləliklə də əslində dövrün gerçək təsvirini vermək baxımından unikal bir missiya yerinə yetirir.**

"Bu ayinədə" tarixə "əyri və ya düz" düşmək isə artıq o cəmiyyətin şans məsələsi sayılmalıdır. Çünki azad informasiya mühitinin yetişməsi üçün ölkədə insan hüquq və azadlıqları ən yüksək səviyyədə qorunmaqla dövlət təminatına söykənməli, mətbuat isə tərəfsiz olaraq ümumən topluma xidmət etməlidir.

Toplumun azadlığı məsələsindən söz açarkən ingilis filosofu Con Stüart Millin hələ XIX əsrdə yazdığı "Azadlıq haqqında" adlı məşhur əsəri yada düşür. Həmin əsərində o, insan azadlığı barəsində deyir: "İnsan canlılar aləminin daim tərəqqiyə can atan bir növüdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz". İngilis filosofunun fikrincə, təfəkkür azadlığı təkcə "dahi başların" yetişdirilməsi üçün zəruri deyil, o, qadir olduğu ən yüksək əqli inkişaf səviyyəsinə çata bilməsi üçün sıradan insanlara daha çox lazımdır". Ümumi mənəvi və əqli köləlik mühitində belə fövqəladə zəkaların olduğunu və yenə də yarana biləcəyini deyən Mill yazır ki, "lakin belə mühitdə heç vaxt intellektual cəhətdən fəal xalq olmayıb və olmayacaq". Elə təkcə bu fikir plüralist cəmiyyətin yetişməsi üçün əsas insan azadlıqlarının nə qədər önəmli məsələ olduğunu ortaya qoyur.

**Azərbaycanın tarixində fikir plüralizminin oyanışı və inkişafı...**

Azərbaycanda söz və mətbuat azadlığı uğrunda tarixi mübarizənin real məzmun kəsb edərək gerçəkləşməsi XIX əsrə təsadüf edir. Bakıda ilk rus qəzetinin nəşrindək Azərbaycan xalqının iqtisadi və mədəni həyatına aid faktları Tiflisdə çıxan rus qəzetləri yazırdı. XIX əsrin 20-ci illərindən başlayaraq "Tiflisskiye vedomosti", "Zakavkazskiy vestnik", "Kavkaz", "Novoye obozreniye" və başqa qəzetlərdə Azərbaycan xalqının ədəbi həyatına aid yazılar əhəmiyyətli yer tuturdu. 1832-ci ildə Tiflisdə Azərbaycan dilində nəşr olunan belə qəzetlərdən biri də "Tiflis əxbarı" qəzeti idi. Lakin çarizmin ideoloji-siyasi təsiri altında olan bu qəzetlər, təbii ki, Azərbaycan aydınlarının xalqı maarifləndirmək kimi müqəddəs missiyanı yerinə yetirməsi üçün yetərli deyildi. Bu səbəbdən Azərbaycanın o dövrdə yaşamış işıqlı şəxsiyyətləri milli mətbuatın yaradılması üçün uzun illər mübarizə aparmalı olub.



1875-ci il iyulun 22-də görkəmli ədib və ziyalı Həsən bəy Zərdabinin təsisçiliyi və baş redaktorluğu ilə Azərbaycanın ilk mətbu orqanı - "Əkinçi" qəzetinin işıq üzü görməsi də elə bu inadlı mübarizənin nəticəsi idi. Lakin bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulsa da, çar istibdadının tüğyan etdiyi həmin illərdə insanların fikir və söz azadlığından danışması belə mümkün deyildi. Bundan onillər sonra Azərbaycanda ziyalı hərəkatının güclənməsinin sonucu olaraq Xalq Cumhuriyyətinin hakimiyyətinin qurulması ölkədə fikir və söz azadlığına nəfəslik açsa da, onun da ömrü cəmi 23 ay çəkdi və Azərbaycan mətbuatı bu dəfə sovet ideologiyasını təbliğ etməyə məcbur edildi. Əslində, 70 il sürən Sovetlər birliyi dönəmində Azərbaycan aydınları yaratdıqları bədii əsərlərdə sətiraltı mənalarla bəzi mətləbləri oxuculara çatdırmağa çalışır və çox zaman buna nail olurdu. Lakin azadlıqsevər bir toplum üçün bu olduqca az idi. Ötən əsrin 90-cı illərinin sonlarında Sovetlər birliyinin süqut etməsilə, SSRİ-nin bir çox respublikaları kimi, Azərbaycanda da milli müqavimət hərəkatı yarandı və Azərbaycan mətbuatında görünməmiş inqilab baş verdi. Yəqin çoxları o dövrdə birdən-birə çoxlu sayda azad fikirli qəzetin ortaya çıxmasını xatırlayır. Sovet ideologiyasının təbliğatçısı, şablon yazıların tribunası olan qəzetlərin ardından "düzü-düz, əyrini-əyri" yazan yeni ideoloji nəşrlərin ortaya çıxması respublikada əsl evolyusiyanın yaşanmasına gətirdi. Düzdür, o dövrdə sovet stereotipi, can üstə olsa da, hələ yaşayırdı və bunun nəticəsi olaraq, bəzi kəskin yazıların senzuradan keçməməsi, hətta qəzet çapa gedən anda yazının çıxarılması üzündən bir sıra hallarda qəzetlərdə ağ səhifələrin getməsinin də şahidi olurduq.

Lakin SSRİ-nin sonunun prezidenti Qorbaçovun dediyi kimi, "proses başlamışdı" və azad fikrin önünü kəsmək artıq mümkün deyildi. Nəhayət, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanda mətbuat da özünün azad dönəminə qədəm qoydu.

**Azərbaycanda azad toplum amilinə dayanan prosesin başlaması və azad sözün inkişaf dövrü...**

Müstəqilliyin əldə olunmasından keçən zaman kəsiyində Azərbaycanda söz və fikir azadlığı istiqamətində çox ciddi nailiyyətlərə imza atılıb və bu yöndə normativ hüquqi aktlar qəbul olunub. O zamankı dövlət başçısı Heydər Əliyevin 1998-ci il 18 iyun tarixində imzaladığı Sərəncamla təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", həmin il avqustun 6-da mərhum prezidentin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman bu kontekstdə "ilk qaranquşlar" sayıla bilər. Bu sənədlər ölkədə söz, mətbuat, fikir azadlıqlarının təminatına əlverişli şərait yaratmaqla, həm də o cəhətdən qiymətlidir ki, bununla Müstəqil Dövlətlər Birliyi məkanında ilk olaraq Azərbaycanda senzura ləğv olundu. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması isə dövlətin mətbuat üzərində nəzarətinə birdəfəlik son qoydu. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun, sonrakı dövrlərdə isə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsilə kütləvi informasiya vasitələri cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrildi. Mərhum prezidentin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə bu sahənin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynadı. "Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir" deyən Heydər Əliyev azad mətbuatın inkişafına çox böyük diqqət göstərib, çap mətbuatının dövlət Nəşriyyatına olan borclarının silinməsi kimi unikal və azad toplum amilinə dayanan qərar verməklə ölkədə söz və fikir azadlığının inkişafında birbaşa dövlətin maraqlı olduğunu ortaya qoyub.

**Prezident İlham Əliyev jurnalistləri niyə özünün köməkçiləri adlandırdı...**

Bu xətt bu gün də davam etdirilir və biz bunu mətbuata göstərilən dövlət qayğısının ən müxtəlif təzahürlərində hiss edirik. Prezident İlham Əliyev bir çox çıxışlarında jurnalist əməyini yüksək qiymətləndirdiyini bildirib. Təsadüfi deyil ki, məhz Prezidentin iradəsi və xeyir-duası ilə bugünə kimi 400 nəfərdən artıq jurnalist dövlətdən mənzil alıb və bu proses bu gün də davam edir. Jurnalistlər üçün inşa olunan ikinci binanın açılışında jurnalist əməyinin cəmiyyətdəki rolu barədə danışan dövlət başçısı hətta onları özünün köməkçisi adlandırıb, bildirib ki, bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edir:"Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Yəni əlbəttə ki, mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizlik məsələləri ilə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə, jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir". Elə təkcə ölkə başçısının dilindən səslənmiş bu fikirlər ölkədə plüralizmin və söz azadlığının hansı səviyyədə olduğunu və Azərbaycan mətbuatının özünün bütün problem və uğurları ilə dövlət başçısının diqqət mərkəzində olduğunu tam şəkildə ortaya qoyur. Maraqlıdır ki, Prezident İlham Əliyevin mətbuata həssas münasibəti xarici mətbuatın da diqqətindən yayınmır. Ötən il Prezidentin qəbulunda olan Rusiya Jurnalistlər Birliyinin sədri Vladimir Solovyovun İlham Əliyevin mətbuatı şəxsən izlədiyini hiss etdiyini dilə gətirməsi, hətta onun hər ölkənin mətbuatını "öz dilində" oxumasından heyrətini gizlətməməsi bunun real təsdiqi sayıla bilər.

**Mətbu orqan təsis etməyin ən asan başa gəldiyi ölkə...**

Görünür, bütün bunların nəticəsidir ki, bu gün Azərbaycanda istər çap, istərsə də online media orqanı açmaq bəlkə heç bir ölkədə olmadığı qədər asandır. Bu faktın özü ölkənin demokratik prinsiplərlə inkişaf etməsi üçün fikir, söz və mətbuat azadlığına önəm verilməsinin və bu azadlıqların qanunla qorunmasının real təzahürü sayılmalıdır. Bakı Dövlət Universitetinin Jurnalistika kafedrasının professoru Cahangir Məmmədli deyir ki, Azərbaycan qanunvericiliyində söz və mətbuat azadlığı çox dəqiq əksini tapıb."Bizim KİV haqqında qanunumuz Avropa Şurasının ən ciddi ekspertizasından keçib. Bu sənəd nəinki MDB məkanında, hətta Avropada ən yaxşı qanunlardan biridir"- deyən professor Azərbaycandakı fikir, söz və məlumat azadlığını dövlətin siyasi kursunun və qazanılan demokratik nailiyyətlərin mühüm tərkib hissəsi adlandırır. Lakin bununla yanaşı, hörmətli professor bu azadlıqların bəzi hallarda yan təsirlərinin də olduğunu təəssüflə qeyd edir. Bildirir ki, ümumiyyətlə, demokratik dövlətlərin söz, mətbuat, fikir azadlığı ilə bağlı formalaşdırdığı qanunvericilik bazası təkcə bu ixtisasa yiyələnən kadrların, mütəxəssislərin deyil, digər bir çox müxtəlif peşə sahiblərinin də mətbuata, televiziyaya, radioya axınına şərait yaradır ki, bu da bəzi hallarda sözügedən sahədə qeyri-peşəkarlığın qol-qanad açmasına gətirir və bu hal Azərbaycandan da yan keçməyib:"Azərbaycanın jurnalistika məkanında KİV qanunvericiliyinin yaratdığı hüquqi imkanlara söykənərək fəaliyyət göstərən bir çox qəzetlərin redaksiyalarına qeyri-peşəkarların axınından doğan təcrübə sübut edir ki, peşənin nəzəriyyəsini bilmədən jurnalist olmaq xoşagəlməz nəticələrə gətirib çıxarır". Jurnalistikanı xüsusi elm sahəsi adlandıran professorun sözlərində böyük həqiqət var. Bu sahəyə bələd olan hər kəs təsdiq edər ki, Azərbaycanda mətbu orqan təsis etmək üçün uzun-uzadı bürokratik proseslərdən keçmək lazım gəlmir. O üzdən də istənilən sıravi vətəndaş zəruri hüquqi sənədləşmədən keçməklə özünə mətbu orqan yaradıb jurnalist cameəsinə qoşula bilir. Lakin dövlətimizin bizə verdiyi bu hüquqi azadlıq modeli bəzi hallarda qeyri-peşəkarların şantaj və qorxutmaqla pulqazanma vasitəsinə çevrilir ki, sonda bu da xoş olmayan nəticələrə gətirib çıxarır. Doğrudur, Azərbaycan Mətbuat Şurasının "reket jurnalistikaya" qarşı yaratdığı komissiyanın fəaliyyəti bu halların kökünü kəsə bilməsə də, onun qol-qanad açmasının qarşısını ciddi şəkildə ala bilib. Lakin görünən o ki, ölkədəki plüralist atmosferdən öz mənafeyi naminə yararlanmaq istəyənlər hələ də var və insanlar ölkədə söz və fikir azadlığına açılan geniş imkanlardan sui-istifadənin yolverilməzliyini dərk edənədək bu mübarizə davam etməlidir. Yalnız bu xoşagəlməz təmayüllər aradan qalxdıqda və bəzi insanlar bu azadlığı doğru qiymətləndirib, "düzü-düz, əyrini-əyri" yazmaqla mükəlləf olduqlarını anladıqda Azərbaycan jurnalistikası intibah dövrünü yaşayacaq və ümid edək ki, o gün uzaqda deyil.

***Samirə SƏFƏROVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# Polis və ekologiya məmurları çimərliklərə qarşı cərimə sanksiyalarına başladı

**Bakıda bir çox ərazidə Xəzərin və sahilboyu zolağın çirklənməsi halları ilə qarşılaşırıq. Məsələn, Şıx, Buzovna çimərliyində sahil zolağı kanalizasiya suları ilə yanaşı, məişət tullantıları ilə də çirkləndirilir. Xəzər dənizini çirkləndirən istirahət mərkəzlərinə dəfələrlə xəbərdarlıq edilsə də, həmin məkan sahibləri işlərində hər hansı bir dəyişiklik etmədilər.**




***İlqar Hüseynli:*** *"Dənizə çirkab sular axıdanlar və məişət əşyaları atanlar sərt şəkildə cəzalandırılmalıdırlar"*

Belə olan vəziyyətdə Xəzər dənizini çirkləndirən istirahət mərkəzləri cərimələnib.

Qeyd edək ki, Xəzər dənizi sahillərində ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndələri ilə birgə növbəti reydlər keçiriblər. Reydlər zamanı Sumqayıt şəhərinin Xəzər dənizinin sahil zolağında fəaliyyət göstərən "Duyğu", "Liman", "Atlantida", "Narınqala" və "Flaqman" istirahət mərkəzlərində formalaşan tullantı sularının təmizlənmədən dənizə axıdıldığı aşkar edilib. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərini pozduqlarına görə cavabdeh şəxslər Etibar Məmmədov, Mehriban Kılıc, Ələkbər Qarayev, Süleyman Məmmədov, Amil Mirzəquliyev barəsində protokol tərtib olunub və onların hər biri vəzifəli şəxs qismində 2500 manat məbləğində cərimə edilib. Sutəmizləyici qurğuların quraşdırılması üçün sözügedən obyektlərin sahiblərinə icrası məcburi olan "məcburi göstəriş"lər verilib. Eyni zamanda, qurğular quraşdırılanadək sözügedən obyektlərin fəaliyyətlərinin dayandırılması ilə bağlı Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi qarşısında vəsatət qaldırılıb.

*"... 2500 manat deyil, daha yüksək məbləğdə cərimə..."*

**Sosial sahə üzrə ekspert İlqar Hüseynli bizimlə söhbətində qeyd etdi ki, dənizə çirkab sular axıdanlar və məişət əşyaları atanlar sərt şəkildə cəzalandırılmalıdırlar:** "Bu günlərdə dənizi çirkləndirən istirahət mərkəzlərinin sahibləri müəyyən məbləğdə cərimələniblər. Dənizi və onun sahilini çirkləndirənlər yüksək məbləğdə cərimələnməlidirlər ki, bu hal digərlərinə də dərs olsun".

Həmsöhbətimiz onu da vurğuladı ki, Xəzər dənizinin ətrafında fəaliyyət göstərən istirahət mərkəzlərinin bir qismi çirkab sular üçün xüsusi qurğu quraşdırmayıb. Belə olduğu halda, həmin çirkab su dənizə axıdılır: "Aidiyyəti qurumlar dəfələrlə çirkab suların dənizə axıdılmaması, işə obyektlərinə xüsusi qurğunun quraşdırılmasının vacibliyi barədə xəbərdarlıq ediblər. Ancaq bəzi sahibkarlar həmin xəbərdarlığa əhəmiyyət verməyərək ekologiyanı pozmaqla məşğuldurlar. Bu səbəbdən də hesab edirəm ki, Xəzər dənizini və onun sahilini çirkləndirən istirahət mərkəzlərinin sahibləri sərt şəkildə cəzalandırılmalıdırlar. Zənnimcə, dənizi çirkab su ilə çirkləndirənlərin 2500 manat dəyərində cərimələnməsi az rəqəmdir. Hesab edirəm ki, Xəzər dənizini bilərəkdən çirkləndirən sahibkarlar 2500 manat deyil, daha yüksək məbləğdə cərimə olunmalıdırlar".

***Günel CƏLİLOVA***

# Bağçalarda ərzaq təhlükəsizliyi məsələsinə Qida... Agentliyi özü qarışdı...

**Yay mövsümünün başlanması ilə əlaqədar bağçalarda uşaqların düzgün qidalanmasına nəzarət məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən monitorinqlər aparmaq üçün tədbirlər planı hazırlanır. Bu barədə agentliyin mətbuat xidməti məlumat verib.**



***Fatimə Hacıbəyli:*** *"Tək yay aylarında deyil, ilin bütün fəsillərində uşaqların necə qidalanmasına nəzarət etmək üçün bağçalarda monitorinqlər aparılmalıdır"*

Qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqların rasional və təhlükəsizlik qaydalarına uyğun qidalanması əhalinin və gələcək nəsillərin sağlamlığının təmin olunması üçün vacib şərtdir və strateji əhəmiyyət daşıyır: "Gələcək nəsillərin sağlam böyüməsi və uşaqların fiziki cəhətdən normal inkişafını təmin edən ən vacib komponent onların düzgün qidalanması ilə bağlıdır. Özündə gündəlik lazımi qida dəyərini ehtiva edən qida maddələrindən ibarət balanslaşdırılmış qida rasionu uşaq orqanizminin böyüməsi və normal inkişafını təmin edir. Düzgün qidalanma xüsusilə uşaqların immunitetinə müsbət təsir etməklə orqanizmin dözümlülüyünü artırır, onların psixoloji cəhətdən düzgün inkişafına əlverişli şərait yaradır. Odur ki, uşaq bağçalarının təhlükəsiz qida məhsulları ilə təmin edilməsi və uşaqların sağlam qidalanması çox böyük əhəmiyyət kəsb edir".

Ekspertlər məktəbəqədər təhsil müəssisəsində uşaqların düzgün qidalanmasına nəzarət olunması üçün monitorinqlərin keçirilməsini müsbət dəyərləndirirlər.

**"Vəfa" Sosial Problemlərə Dəstək İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün əksər bağçalarda qidalanma ilə bağlı çoxsaylı problem yaşanır:** "Bu olduqca ciddi nöqsandır. Məlumat üçün bildirim ki, dövlət tərəfindən hər bir uşağın qidalanması üçün menyu müəyyən olunsa da, bəzi bağça müdirləri və ayrı-ayrı yerli icra hakimiyyəti orqanları tərəfindən həmin ərzağın böyük əksəriyyəti mənimsənir. Beləliklə, həmin qidalar uşaq bağçasına gedib çatmır. Bu problemlə bağlı şikayətlər yetərincədir. Valideynlərin özləri övladlarına evdən ərzaq qoymasa, o zaman uşaqlar keyfiyyətsiz qida ilə qidalanmalı olacaqlar. Təəssüf ki, bu problem bütün dövlət uşaq bağçalarında qeydə alınır.

*"...bəzi bağça müdirləri və ayrı-ayrı yerli icra hakimiyyəti orqanları tərəfindən həmin ərzağın böyük əksəriyyəti mənimsənir"*

Məlumat üçün bildirim ki, dövlət tərəfindən gün ərzində 4 dəfə yüksək səviyyədə qidalanma menyusu müəyyən edilib verilsə də, təəssüf ki, uşaqlar üçün verilən qidalar daha keyfiyyətsiz və az həcmdə olur.

Bu səbəbdən bağçalarda aidiyyəti qurumların iştirakı ilə monitorinqlərin keçirilməsi vacibdir. Tək yay aylarında deyil, ilin bütün fəsillərində uşaqların necə qidalanmasına nəzarət etmək üçün bağçalarda yoxlanış etmək lazımdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, dövlət uşaq bağçalarından fərqli olaraq, özəl bağçalarda uşaqların qidalanması ilə bağlı hər hansı bir problem yoxdur.

***Günel CƏLİLOVA***

# Tağıyevin heykəli ilə bağlı müsabiqə problemlə üzləşib - müddət uzadılacaqmı...

**Millət atası kimi milli tariximizdə özünə yer tutan böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda abidəsinin ucaldılması barədə uzun illərdir müzakirələr aparılırdı. Məlum olduğu kimi, aprel ayında Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondu Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı açıq heykəltəraşlıq müsabiqəsi elan ediblər.**



Qeyd edək ki, fonddan mətbuata verilən məlumata görə, heykəlin "İçərişəhər" metrostansiyası yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılması nəzərdə tutulub.

Hacı Zeynalabdin Tağıyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə açıq heykəltəraşlıq müsabiqəsinin münsiflər heyətinin üzvü, Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadənin bildirdiyinə görə, Tağıyevin heykəlinin forması ilə bağlı təkliflər hələlik müzakirə mərhələsindədir. O, həmçinin, müsabiqənin iyunun 30-da başa çatacağını və sonra münsiflər heyətinin ən layiqli layihəni seçəcəyini bildirib. "Hacı Zeynalabdin Tağıyevin heykəlinin "İçərişəhər" metrostansiyasının qarşısında qoyulması təklif olunur. Bu, yeganə təklifdir və abidənin başqa məkanda qoyulması gündəmə gəlməyib".

Hacı Zeynalabdin Tağıyevin heykəli üçün elan edilmiş müsabiqənin vaxtı iyunun 30-da başa çatır.

Heykəltəraşlar müsabiqədə iştirak etmək üçün maraq göstəriblərmi?

Hacı Zeynalabdin Tağıyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə açıq heykəltəraşlıq müsabiqəsinin təşkilat komitəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, yerli memar və heykəltəraşların müsabiqəyə marağı böyükdür. Təşkilat Komitəsindən onu da bildirdilər ki, müsabiqədə iştirak etmək və Tağıyevin Bakıda qoyulacaq abidəsinin müəllifi olmağa iddia edənlər çoxdur. "Müsabiqədə iştirak etmək üçün müraciət edənlərin sayı həddindən artıq çox idi. Hacı Zeynalabdin Tağıyevin abidəsinin müəllifi olmaq istəyənlər çoxdur. Hətta bəzi heykəltəraşlar təşkilat komitəsinə müraciət edərək müsabiqənin vaxtının uzadılmasını istəyirlər. Çünki çoxunun işi hələ yarımçıqdır, istəyirlər ki, işlərini başa çatdırsınlar" - deyə təşkilat komitəsindən bildirdilər.

"Müsabiqənin vaxtı uzadıla bilərmi" - deyə təşkilat komitəsi təmsilçisindən soruşduqda o bildirdi ki, bununla bağlı hər hansı bir açıqlama verə bilməz.

***Təşkilat Komitəsi:** "Müsabiqədə iştirak etmək üçün müraciət edənlərin sayı həddindən artıq çox idi"*

***Mədəniyyət Nazirliyi:** "Bu məsələ ilə bağlı yalnız təşkilat komitəsi tərəfindən məlumat verilə bilər"*

***Xanlar Əhmədov:** "Abidəni təsəvvür etdiyim formada hazırlamışam, ümid edirəm ki, münsiflər tərəfindən də abidə öz qiymətini alacaq"*

Müsabiqədə xarici memar və heykəltəraşların iştirakına gəlincə, təşkilat komitəsindən bildirdilər ki, bu barədə hər hansı bir məlumat vermək onların səlahiyyətinə aid deyil: "Cəmi bir neçə gündən sonra müsabiqədə iştirak edənlərin kimliyi və sayı məlum olacaq. Müsabiqədə iştirak edənlərin kimliyi və sayı barədə biz heç bir informasiya verə bilmərik".

Mədəniyyət Nazirliyindən isə bildirdilər ki, məsələ ilə bağlı yalnız təşkilat komitəsi tərəfindən məlumat verilə bilər: "Bu məsələ ilə bağlı yalnız təşkilat komitəsi tərəfindən məlumat verilə bilər. Çünki bütün proseslər onların iştirakı ilə baş verir".

**Müsabiqədə iştirak edən Azərbaycan Rəssamlar İttifaqının heykəltəraşlıq bölümünün rəhbəri, Xalq rəssamı Xanlar Əhmədov isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, artıq Hacı Zeynalabdin Tağıyevin abidəsi üzərində işi başa çatdırıb.** "Bilirsiniz ki, müsabiqə elan ediləndən Hacı Zeynalabdin Tağıyevin abidəsi üzərində işləyirəm. Artıq abidə hazırdır. Hesab edirəm ki, istədiyimə nail olmuşam. İstədiyimi abidədə verə bilməsəydim, heç bu işi görməzdim. Abidəni təsəvvür etdiyim formada hazırlamışam, ümid edirəm ki, münsiflər tərəfindən də abidə öz qiymətini alacaq".

X.Əhmədov bildirdi ki, o, H.Z.Tağıyevin heykəlini işləyərkən onun əsl simasını canlandırmağa çalışıb. O hesab edir ki. Tağıyevin heykəli özündə bu böyük şəxsiyyətin bütün xüsusiyyətlərini əks etdirməlidir.

Həmkarlarından kimlərin Tağıyevin heykəli üzərində işlədiyinə gəlincə, X.Əhmədov bildirdi ki, o bundan xəbərsizdir. "Müsabiqə belədir ki, elan edildikdən sonra hər kəs öz emalatxanasına çəkilib işləyir. Bir heykəltəraşın digərinin nə işlədiyindən xəbəri olmur" - deyə X.Əhmədov qeyd etdi.

***İradə SARIYEVA***

# "Sandıq açıldı, Mirzə Şəfinin sirri aydın oldu" - Böyük şairə həsr olunmuş kitab işıq üzü gördü, həm də üç dildə...

**Bu günlərdə "Xalq" Bankın "Xalq Əmanəti" layihəsindən növbəti kitab təqdim olunub. Sayca on səkkizinci nəşr böyük Azərbaycan şairi, mütəfəkkiri, maarifçi-pedaqoqu Mirzə Şəfi Vazehin yaradıcılıq irsinə həsr edilib. Məlumat üçün bildirək ki, kitab üç dildə - Azərbaycan, rus və alman dillərində çap olunub və onun nəşri şairin anadan olmasının 225-ci ildönümünə təsadüf edir.**




Mirzə Şəfi Vazehin yaradıcılıq irsinə həsr olunmuş adıçəkilən kitabın təqdimat mərasimində iştirak edən layihənin redaktoru, şair Səlim Babullaoğlu çıxış edərək bildirdi ki, kitab beş ildən çox müddət ərzində, müxtəlif ölkələrin çoxsaylı araşdırması nəticəsində ərsəyə gəlib: "Kitabda həm klassik, həm də müasir təcrübələr yer alıb, bizə doğru 170 ilə yaxın yol gəlib. 170 il sonra ilk dəfədir ki, Vazehin bütün şeirləri Azərbaycan dilinə çevrilib. Onun 20-dək almanca şeiri var ki, indiyə qədər Azərbaycan dilində nəşrdə yer almamışdı".

Daha sonra çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli qeyd etdi ki, Vazehlə bağlı yeni kitab Azərbaycan ədəbiyyatı, elmi, ictimai fikrinə hədiyyədir: "İndiyə qədər Mirzə Şəfi Vazehin yaradıcılığı bizdə bu qədər geniş tədqiq olunmayıb. Vazeh haqda bu gün də çox şey bilmirik. Nəğmələri, kitabları çeçələ barmağımız həcmində olub. Onun yalnız 40-50 şeiri ilə tanış idik.

Bu kitabda isə onun bütün yaradıcılığı öz əksini tapıb. Düşünürəm ki, kitab Vazeh yaradıcılığı haqqında çox qiymətli əsərdir".

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov kitabın əhəmiyyətinə toxunub: "Uzun illər ədəbiyyatşünaslar arasında "Fridrix Martin fon Bodenştedtin sandığı" ifadəsi olub. Sandıq nə vaxt açılacaqdısa, Mirzə Şəfinin də sirri aydın olacaqdı. Məlum oldu ki, belə sandıq yox imiş. Bu da bir mistika idi. Mənə elə gəlir ki, sandıq bu gün açılır. Onun bu mistikasına, yaradıcılığının fəlsəfəsinə izahlar çox olacaq".

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, millət vəkili Rafael Hüseynov kitabın Azərbaycan-Almaniya ədəbi əlaqələr nöqteyi-nəzərindən önəmli olduğunu vurğulayıb. O, Mirzə Şəfi Vazehə zamanında sahib çıxılmadığını dilə gətirdi: "Şəfidən ayrılıqdan böyük zaman keçib və ilk dəfə fundamental kitab hazırlanıb. Həmişə axtarırdıq ki, Şəfinin arxivi Bodenştetin evinin hansısa küncündədir, gizlədib və bu arxivin açılma müddəti var, amma Həmid Məmmədzadə sübut etdi ki, onu kənarda yox, elə evdə axtarmaq lazımdır.

Kekelidze adına Əlyazmalar İnstitutunda şeirlər məcmuəsi tapdı. O cüngün içərisində Mirzə Şəfi Vazehin bu günə qədər məlum olmayan şeirləri vardı".

Rafael Hüseynov Mirzə Şəfi Vazehlə bağlı rastına çıxan nümunədən də söz açdı: "Moskva hər il "Şkola molodıx vostokovedov" adlı konfrans keçirirdi, ayrı-ayrı şəhərlərdə təşkil olunurdu. 1981-ci ildə tədbir İrəvanda keçirilirdi və mən də iştirak elədim. Matenadaranda əlyazmalarla işləyəndə Sayat Novanın oğlu Ohanın Azərbaycan türkcəsində Mirzə Şəfi Vazehə cavab olaraq yazdığı şeir rastıma çıxdı. Axtarası olsaq, hələ nə qədər mətnlər ortaya çıxar".

AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov bildirdi ki, böyük yaradıcı kollektivin zəhməti hesabına ərsəyə gələn bu kitab Mirzə Şəfi ilə bağlı bir sıra sirlərin üstünün açılmasına rəvac verə və gələcək tədqiqatlara böyük işıq sala bilər.

Araşdırmaçı Orxan Aras isə vurğuladı ki, 45 atalar sözü və deyim Mirzə Şəfi Vazehin şeirlərindən alman dilinə keçib: "Bu, 1919-cu ildə "Alman atalar sözü" adlı kitabda üzə çıxıb. Bu çox vacib bir şeydir. Çörçill 1953-cü ildə Nobel mükafatı alanda etirazlar oldu, dedilər zalım bir adama necə bu mükafatı vermək olar? Cavabda qeyd etdilər ki, ingilis dilinə Şekspirdən sonra ən çox söz daxil edən şəxsiyyət olduğundan, Çörçill bu mükafatla təltif edilib. Bir dilə yeni söz və atalar sözü daxil etmək çox önəmli bir məqamdır".

***Günel CƏLİLOVA***

№ 112 (4010) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

28 İYUN 2019-cu il

www.baki-xeber.com

## Xərçəngi sağaldan yeni üsul tapıldı...

**Cənubi Kaliforniya Universitetində tədqiqatçılar bədən hüceyrələrini yenidən işə salmaq üsulunu tapıb. "Milli.Az" xəbər verir ki, uzun müddət davam edən aclıq vücudu qoruyur və regenerasiyaya səbəb olur.**



Məlum olub ki, aclıq kök hüceyrələrini istirahət vəziyyətindən özünü bərpa vəziyyətinə çevirir. Klinik tədqiqatlar kimyəvi terapiya alan xəstələrin iştirakı ilə aparılıb. Bir müddət qida qəbul etməyən xəstələrdə qandakı leykositlərin sayının əhəmiyyətli dərəcədə azaldığı müşahidə olunub. Bədən ac qaldığı zaman sistem enerjiyə qənaət etməyə çalışır. Və əhəmiyyətli dərəcədə lazımsız, xüsusilə zədələnə biləcək immun hüceyrələrini utilizasiya edir. Ən önəmlisi bu, yaşlanma, şiş inkişafı və xərçəng ilə əlaqəli olan fermentləri azaldır. Bu günə qədər aparılan bütün tədqiqatlar göstərir ki, aclıq, yeni oruc sağalma səviyyəsini artırır, şişlərin böyüməsini ləngidir və şişlərin yayılmasını məhdudlaşdırır. Yeni bir qida sisteminə keçməzdən əvvəl, ilk olaraq bütün testlərdən keçməyi və həkimə müraciət etməyi məsləhət görürük.

## Elan

Şəki rayonu, Öryət kənd sakini Məmmədov Məmmədəli Qədir oğlunun adına verilmiş 404013066818 nömrəli reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiçik Dəhnə kənd sakini Əliyeva Zenfira Qurban qızının və ailə üzvlərinin adına verilmiş JN: 575 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Təhməzov Telman Vəli oğluna AA027968 "Bursa" MMC tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır. (Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, N3169 məhəllə, Mircəlal küçəsi, bina 61, mənzil 85)

Əlicanov Sənan Ağasəf oğluna məxsus AA0815969 "Tayota Land Cruiser Prado" markalı avtomaşının ön 99-XU-012 dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.

Əsədov Mahir Nadir oğluna məxsus, Abşeron rayonu, Xırdalan qəsəbəsi, 27-ci məhəllə, ev N2, mənzil 2 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

"Yasamal - 22" Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyətinə (VÖEN N1305451231) məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Həsənov Bəhrəm Köçəri oğluna Azərbaycan Respublikası DİN tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kərimov İlham Namizəd oğluna Azərbaycan Respublikası DİN tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Aslan Elxan oğluna məxsus Bakı şəhəri, Yasamal rayonu C.Cabbarlı küçəsi, ev 23, mən 5 ünvanına verilmiş çıxarış (seriya RX N0540040) itdiyi üçün etibarsız sayılır.

Hüseynova Svetlana Qriqoryevnaya məxsus Bakı şəhəri, Xətai rayonu, Naximov küçəsi ev 43, mən 48 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (seriya ÖM N048033) itdiyi üçün etibarsız sayılır.



## "Nar" bir sıra hərbi hissələrdə mobil danışıq nöqtəsi yaratdı

**26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə "Nar" növbəti uğurlu layihəsini icra edib. Belə ki, mobil operator Müdafiə Nazirliyinin dəstəyilə cəbhəyanı zonada yerləşən bir sıra hərbi hissələrdə "Nar" danışıq nöqtəsi yaradıb. Məqsəd əsgərlərimizin öz yaxınları, doğmaları ilə daha yaxın olmaları və mütəmadi təmas qurmalarına dəstək olmaqdır. Hərbi hissələrdə yaradılan "Nar" danışıq nöqtəsində əsgərlər istədikləri qədər öz yaxınları ilə danışa biləcəklər.**

Qeyd edək ki, bayram günü mobil operator Vətən keşiyində duran əsgərlərimizi sevindirmək, onlara olan hörmətini bildirmək məqsədilə cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissəyə səfər edib və Azərbaycan Ordusunun əsgərləri ilə görüşüb. Bundan başqa, hərbi hissələrə əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün müxtəlif hədiyyələr də təqdim edilib.

Əsgərlərlə görüşü zamanı "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib ki, artıq ikinci ildir mobil operator Müdafiə Nazirliyi ilə birgə uğurlu layihəsini icra edir: "Silahlı Qüvvələr Günündə əsgərlərlə birgə olmaq bizim üçün qürurvericidir. Ötən il sərhədyanı bölgədə xidmət edən 100-ə qədər əsgərin bayramı öz valideyni ilə birgə qeyd etməsində yaxından iştirak etdik. Bu il isə 100-lərlə hərbçinin doğmaları ilə sərhədsiz ünsiyyət qurmaları üçün "Nar" danışıq nöqtələri yaratdıq. Vətənə bağlılığı kimi ümdə vəzifələrə hər zaman həssas yanaşan "Nar" əsgərlərimizə hər hansı mənəvi dəstək göstərməyi özünə borc bilir. Bu şərəfli yolda xidmət edən əsgərlərimizə yaxınları ilə öz sevinclərini və xoş xəbərlərini bölüşməsini arzulayırıq".

Qeyd edək ki, "Nar" ötən ilin martında Müdafiə Nazirliyi ilə birlikdə ölkəmizin müxtəlif bölgələrindən 100-dən çox valideynin cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissədə əsgərlərlə görüşünü təşkil etmişdi. Müdafiə Nazirliyinin dəstəyilə həyata keçirilən bu bayram görüşü nəticəsində valideynlər cəbhədə xidmət göstərən övladları ilə bərabər Novruz bayramını qeyd etmişdi.

Vətənə bağlılığın təşviqi Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmiş brendimizin əsas amallarındandır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Ən adi, rutin məsələlərin həllində ekstravaqant çözüm yollarından yararlansanız, problemlərin öhdəsindən gələcəksiniz. Maliyyə məsələləri, sərmayə layihələri üçün əlverişli zamandır.



**Buğa** - Qarışıq, mürəkkəb zamandır. Astagəl olmayın, sürətlə hərəkət edin. Xəbərləri dinləyin, gələn məlumatları saf-çürük edin, hadisələrə təsir imkanlarına malik insanlarla görüşün.



**Əkizlər** - Yorucu, usandırıcı, rutin işlərlə dolu gündür. Yaxın ətrafınızdakı insanlar sizinlə bağlı bəlli gözləntilərə malikdirlər. İşlərin öhdəsindən gələ bilmədiyinizi anlayırsınızsa, dostlara yardım üçün müraciət edin.



**Xərçəng** - Ətrafınızdakı vurnuxmanın adi elementinə çevrilməyin. Plan çərçivəsində hərəkət edin. Öhdəlik və vədlərinizi unutmayın. Etibar etdiyiniz insanların gözləntilərini aldatmayın.



**Şir** - Ehtiyatlı olun. Sizi iradənizə zidd olaraq avantüraya cəlb edə bilərlər. Pullarınızı yanlış yatırma riski var. Sərfəli olmayan alışlar etməyin. Gərəkli işlə məşğul olun. Ciddi qüvvə və vaxt alan məhğuliyyəti unudun.



**Qız** - Yaşamın müəyyən təfərrüatlarına diqqət yetirin. Narahatlıq, uğursuz şərtlər istisna deyil. İşgüzar aktivliyiniz ifrata varmamalıdır. Bir müddət fasilə edin. Yaxın gələcəklə bağlı planlarda dəyişikliklər zamanıdır.



**Tərəzi** - Xərclərinizi artırmayın. Yaxınlarınızdan qayğınızı əsirgəməyin. Sürətlə inkişaf edən prosesi donuq nəzərlərlə seyr etməyin. Dəyər verdiyiniz insanın maraqlarını nəzərə alın. Yaxşılıq müqabilində heç nə gözləməyin.



**Əqrəb** - İstədiyinizdən artıq vaxtı ünsiyyətə sərf etməli olacaqsınız. Qarşılıqlı əlaqələrin, təmasların bir neçə kanalını nəzarətdə saxlayın. Yaxın ətrafınızdakı insanların sizinlə bağlı ifrat gözləntiləri var.



**Oxatan** - Günün ilk yarısında yaşananları laqeyd, süst şəkildə seyr etməyin. Aktiv olun, ətrafınızdakı insanlara fikir verin. Dəyər verdiyiniz şəxsə təzyiq göstərməyə çalışmayın.



**Oğlaq** - İstəklərinizə nəzarət edin. Praktik olun, durumu normal qiymətləndirin. Alış-veriş üçün əlverişli zaman deyil. Bir müddət sonra cazibəsini və aktuallığını itirəcək əşyaya çox pul verməyin.



**Dolça** - Həyəcan və emosiyaların bol olacağı gündür. Artıq söz deməmək üçün özünüzü ələ alın. Bədxahlar, sizə qarşı məkrli davranan rəqiblər durumdan istifadə edə bilərlər. Ünsiyyət çevrəsini yanlış seçməyin.



**Balıqlar** - Dostlardan birinin davranışı və sözləri sizi təəccübləndirəcək. Bu adam sizdən faydalanmaq, vəziyyətdən sui-istifadə etmək istəyir. İşdə həmkarlarınızla normal davranın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qadının gözündən dörd arı çıxdı

**Tayvanda yaşayan 28 yaşlı qadın qohumunun məzarının üzərindəki otları təmizlədikdən sonra gözündə şiddətli ağrılar yaranıb.**



"Metbuat.az" bildirir ki, ilk əvvəl qadın sol gözündə çirk olduğunu düşünüb. Amma zaman keçdikcə göz ağrıları dözülməz hala gəlib və qadın həkimə getməyə qərar verib. Müayinə zamanı ortaya çıxan nəticə həkimi belə şok edib. Qadınının gözündə 4 arı yaşadığı ortaya çıxıb. Həkim daha əvvəl belə bir hal ilə qarşılaşmadığını bildirib. Arıların hər birinin ölçüsü təxminən 4 milli metr uzunluqda olub. Arılar qadının gözündən çıxarıldıqdan sonra qaadın evə yerləşdirilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.